RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 209 (8232) BAZAR, 22 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yüksəliş və inkişafın təməli

Hər bir dövlətin taleyində mühüm əhəmiyyət daşıyan tarixi günlər olur və həmin günlər xalq tərəfindən böyük təmtəraqla qeyd edilir. 25 il əvvəl müstəqil Azərbaycanın da tarixində belə bir xoş gün yaşanıb. Tariximizin taleyüklü hadisələrlə əlamətdar olan belə günlərindən biri "Əsrin müqaviləsi"nin imzalandığı gündür.

25 il öncə - 1994-cü ildə Azərbaycanın iqtisadi inkişaf konsepsiyasına, neft salnaməsinə qızıl hərflərlə yazılan "Əsrin müqaviləsi" dahi şəxsiyyət Heydər Əliyevin yeni neft strategiyasının təntənəsi kimi yaddaşlara əbədi həkk olundu. 4 dildə tərtib olunmuş 400 səhifəlik bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər sırasına düşdü.

171 il öncə - 1848-ci ildə sənaye üsulu ilə neft hasil edən ilk ölkə Azərbaycan sonrakı iki əsrdə də qlobal neft aktoru kimi ümumdünya əhəmiyyətini qorudu. XX yüzilliyin sonunda imzalanan "Əsrin müqaviləsi" sayəsində yeni dünya düzəninin neft xəritəsinin əsas memarları sırasına daxil olan ölkəmiz XXI əsrə Avropanın əsas enerji təhlükəsizliyi təminatçılarından biri statusu ilə qədəm qoydu.

Azərbaycanın neft sənayesi böyük inkişaf yolu keçsə də, xalqımız yalnız XX əsrin sonralarında, müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanıb və bu, Ulu Öndər Heydər Əliyev dühası ilə reallığa çevrilib.

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə çıxış edən Prezident İlham Əliyev bu tarixi uğuru belə qiymətləndirib: "Əsrin kontraktı" Ulu Öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başlamışlar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni "Əsrin kontraktı"nın çox böyük faydası var".

Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artırılmasına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasında əsas vasitələrdən biri kimi baxılırdı. Belə bir şəraitdə xarici şirkətlərin və investorların ölkəmizə cəlb olunması strateji zərurətə çevrilmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı ölkəni bürümüş daxili ziddiyyətlər, özbaşınalıq böyük neft şirkətlərini Azərbaycandan çəkindirirdi. Eyni zamanda aparılan danışıqlarda Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu.

Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə aparılan danışıqlar 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Həmin dövrdə Azərbaycan elə bir müqavilənin imzalanmasına yaxınlaşmışdı ki, o nəinki xalqın mənafelərini nəzərə almır, həmçinin ölkənin qiymətli təbii sərvətini talan edərək iqtisadiyyata böyük ziyan vura bilərdi.

Ancaq xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu.

Ardı 3-cü səh.

# Prezident İlham Əliyevin yeni islahatlar kursu:

## Davamlı inkişafın iqtisadi-sosial hədəfləri

### Respublika Ağsaqqallar Şurasının, "Azərbaycan" qəzetinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə konfransı





Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Ulu Öndər Heydər Əliyevin banisi olduğu müasir dövlətimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və qüdrətlənir. Düşünülmüş, qətiyyətli və uzaqgörən siyasət nəticəsində ölkəmiz ötən 16 ildə mühüm siyasi, iqtisadi, sosial uğurlara nail olub, qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu gün respublikamız sabit, davamlı və dayanıqlı inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövləti məhz Azərbaycandır. Prezident İlham Əliyev isə çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifinə çevrilib.

Respublika Ağsaqqallar Şurasının, "Azərbaycan" qəzetinin və Qəbələ Rayon İcra Hakimiyyətinin Qəbələ şəhərində keçirdikləri "Prezident İlham Əliyevin yeni islahatlar kursu: Davamlı inkişafın iqtisadi-sosial hədəfləri" mövzusunda birgə konfransda da Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs olundu.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Qəbələ şəhərində ucaldılmış abidəsini ziyarət edərək gül qoydular, xatirəsini ehtiramla yad etdilər.

*Tədbiri giriş sözü ilə* ***Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin komissiya sədri Fəttah HEYDƏROV*** *açdı. Xalqımızın dövlət müstəqilliyinin bərpasının 28-ci ildönümünə qədəm qoyduğunu deyən Fəttah Heydərov bildirdi ki, geriyə boylanarkən böhran və inkişafı, tənəzzül və rifahı, ardıcıl məğlubiyyətlər və davamlı uğurları tariximizin əsas göstəriciləri kimi müşahidə edirik:*

- Ötən illərdə yaşadığımız bu faciələrdən qələbələrə, yüksəlişə keçidi tam mahiyyəti ilə təhlil etmək, onun bütün mərhələlərini müəyyənləşdirmək ağsaqqalların vəzifəsi, bunları öyrənmək isə gənclərimizin borcudur. Bugünkü konfransın əsas məqsədi də məhz bu həqiqətlərə bir daha aydınlıq gətirmək, səmərəli müzakirələr təşkil etməkdir. Tədbirimizdə ağsaqqallarla gənclərin yan-yana əyləşməsini görərkən böyük iftixar hissi keçirirəm. Bu mənzərə həm də Azərbaycan dövlətçiliyinin mövcud inkişaf mənzərəsidir. Yəni ənənə ilə müasirlik, irs və varislik prinsipləri milli inkişafımızın əsas zəminidir.

Dövlət müstəqilliyinin ilk illərində yaşadığımız böyük problemlər indi yaddaşımızın acı xatirəsinə çevrilib. Həmin dövrün Azərbaycanından əsər-əlamət qalmayıb. Bugünün Azərbaycanı Cənubi Qafqazın və ümumən Avropanın əsas enerji və iqtisadi-siyasi güc mərkəzlərindən biridir. Tam müstəqil siyasət yürüdən qüdrətli ölkədir. Bu Azərbaycanın qurucusu isə Heydər Əliyev dühasıdır.

Qürur və fəxarətlə deyə biləcəyimiz bir danılmaz həqiqət də var. Ulu Öndərin böyük şücaətlə fəlakətlərdən qoruduğu və davamlı inkişaf yoluna çıxardığı respublikamız son 16 ildə məhz Prezident İlham Əliyevin fitri idarəçilik və liderlik keyfiyyətləri sayəsində özünün parlaq inkişaf mərhələsini yaşayır. Bəli, müasir Azərbaycan ötən illərdə inanılmaz nailiyyətlərə imza atıb. Kənar təzyiqləri inamla dəf edib, müstəqil siyasət yürüdüb. Azərbaycan bu müddətdə qarşıya qoyduğu hədəflərə inamla yetişib.

Müstəqil Azərbaycan bu gün inkişafının ən qüdrətli dövrünü yaşayır. İnkişaf və dövlət quruculuğu prosesi üç təməl prinsipinə əsaslanır. Birincisi, "Güclü dövlət-güclü xalq" ideyasıdır. İkincisi, tam müstəqil siyasətdir. Üçüncüsü isə azərbaycançılıq ideyasıdır.

Bu üç təməl prinsipin banisi, yaradıcısı Ulu Öndər Heydər Əliyevdir. Bu irsi uğurla davam etdirən Prezident İlham Əliyev yeni yanaşmalarla bu ideya xəttini daha da təkmilləşdirmiş, müasirləşdirmişdir. Ümumiyyətlə isə inkişafın hər bir sahəsində möhtərəm Prezident yeni bir model yaradıb. Bu baxımdan biz "İnkişafın İlham Əliyev modelini" bütün dünyaya örnək nümunə kimi göstərə bilərik.

Prezident ən mürəkkəb siyasi şəraitdə birləşdiricilik keyfiyyətləri sayəsində xalqı öz ətrafına, Ulu Öndər ideyalarının cazibəsinə toplaya bilib. Ölkə başçısının ötən illərdə yürütdüyü siyasətin real, əməli fəaliyyətə söykəndiyinə hər bir vətəndaş daxilən əmin oldu. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab İlham Əliyev bu missiyasını da uğurla həyata keçirdi.

Mən möhtərəm Prezidentimizin himayədarlıq fəaliyyəti ilə bağlı yalnız bir fakta nəzər salmaq istərdim. 7 ay öncə Şamaxı və Ağsu rayonlarında təbii fəlakət, zəlzələ baş verdi. Zəlzələdən dərhal sonra Prezident bölgəyə gəldi, zərərçəkənlərlə görüşdü. Onları dinlədi, problemlərini öyrəndi. Bərpa və quruculuq prosesini şəxsi nəzarətinə götürdü. Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha göstərdi. Qısa müddətdə böyük quruculuq işləri görüldü, evlər bərpa edildi. Cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yenidən bölgəyə gəldilər, bərpa edilən ilk evlərin açılışını etdilər.

İndi bərpa və quruculuq prosesi davam edir, yüzlərlə ev tikilir, həm də yeni binalar inşa olunur. Dövlət və Heydər Əliyev Fondu daim xalqın yanındadır. Şamaxıda və Ağsuda zəlzələnin nəticələrinin qısa müddətdə aradan qaldırılması Prezidentin sosial siyasətinin əyani təzahürüdür.

Ardı 4-5-ci səh.

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2019-cu il*

# M.Ş.Şəkiliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Musa Şaban oğlu Şəkiliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2019-cu il*

# X.A.Xələfovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Xələf Alı oğlu Xələfov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2019-cu il*

# 8 ayda 8,6 milyard manat vəsait

## Prezident İlham Əliyevin iqtisadi islahatları Azərbaycanı yerli və xarici investorlar üçün əlverişli biznes məkanına çevirib

Azərbaycanda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilir. Aparılan davamlı iqtisadi islahatlar nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilib və bu sahədə əhəmiyyətli dərəcədə irəliləyişlərə nail olunub. Məhz bunun nəticəsidir ki, dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olan Azərbaycan iqtisadiyyatı bu ilin birinci yarımilliyində 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,8 faiz, ticarət dövriyyəsi 20 faizdən çox, qeyri-neft ixracı 17 faiz artıb.



Dövlət özəl sektorun inkişafına, yerli və xarici iş adamlarının fəaliyyətinə hərtərəfli imkanların yaradılması, iqtisadi mühitin liberallaşdırılması yolu ilə əlverişli biznes və investisiya mühitinin formalaşdırılması istiqamətində bütün zəruri tədbirləri görür.

Prezident İlham Əliyevin sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə vurğuladığı kimi, iqtisadi göstəricilər Azərbaycanın düzgün istiqamətdə inkişaf etdiyini bir daha təsdiqləyir: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır".

Ardı 3-cü səh.

# *Prezident İlham ƏLİYEV:* "Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 88-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 88-ci kitabındakı materiallar 2018-ci ilin iyunundan avqust ayınadək olan dövrü əhatə edir. Həmin dövrdə Azərbaycanın uğurla təmsil olunduğu tədbirlərdən biri Xəzəryanı dövlətlərin dövlət başçılarının V zirvə toplantısı olub. Prezident İlham Əliyev zirvə toplantısında çıxış edərkən Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirib. Dövlət başçısı vurğulayıb ki, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Prezidentin zirvə toplantısında dərin məzmunlu çıxışının mətni 88-ci kitaba daxil edilib.




Kitabda Prezident İlham Əliyevin NATO-nun zirvə toplantısında iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşləri barədə informasiyalar, NATO-nun Əfqanıstanda qətiyyətli dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxışının mətni, Fransa və Qazaxıstana səfərlərindən bəhs edən materiallar yer alıb.

Oxucu nəşrdə dövlət başçısının Azərbaycana səfərə gəlmiş Türkiyə, İtaliya, Tacikistan prezidentləri, Almaniyanın Federal Kansleri ilə apardığı danışıqlar, mətbuata bəyanatların mətnləri, ölkələr arasında saziş və müqavilələrin imzalanmasına dair materiallarla da tanış ola bilər. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ olaraq qaldırılır ki, bu da hər cilddə öz əksini tapır.

Çoxcildliyin 88-ci kitabında ölkə rəhbərinin Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası polis orqanlarının şəxsi heyətinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin kollektivinə təbrik məktubları və digər məktublar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqlərinin mətnləri, Şamaxı, İsmayıllı rayonlarına səfərlərinə dair materiallar da toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 88-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Milli Məclisin Sədri Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edəcək

Sentyabrın 23-də Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərinə səfər edəcək.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlardan Xanlar Fətiyev, Cavanşir Feyziyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Milli Məclisin Sədri Nur-Sultan şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edəcək. Tədbirə Avropa və Asiyanın müxtəlif ölkələrinin parlament rəhbərləri və nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri dəvət olunublar.

"Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçiriləcək konfransın əsas məqsədi Avrasiya məkanında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün Avropa və Asiyanın qanunverici orqanlarının rəhbərləri və parlamentlərarası təşkilatların başçıları arasında birbaşa dialoqun qurulmasıdır.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Səfər sentyabrın 24-də başa çatacaq.

# Azərbaycanın Müdafiə naziri Belarus Təhlükəsizlik Şurasının dövlət katibi ilə görüşüb



Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu və dövlət başçıları arasında dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığı qeyd edilib. Azərbaycan ilə Belarus arasında hərbi əməkdaşlığın inkişafına və qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyətlərin müzakirəsi zamanı dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, xüsusilə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş potensialın olduğunu deyən Müdafiə naziri görüşün önəmini vurğulayaraq, bunun ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcəyinə əminliyini bildirib.

Münasibətlərin inkişafından məmnunluğunu ifadə edən S.Zas Belarusun Azərbaycan ilə əlaqələrinin genişləndirilməsi, o cümlədən hərbi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində perspektivlərin olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətraflı müzakirə olunub.

# İsmayıllı şəhərində gənclərlə görüş

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov sentyabrın 21-də İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində gənclərlə görüş keçirib.

Görüşdə YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputat, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruzəli Aslanov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə İsmayıllı şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova tədbirdə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində İsmayıllı rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. İsmayıllılı gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.



Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan danışıb. Əli Əhmədov deyib ki, gənclərin təhsil alması, işləməsi, istirahət etməsi, gənclərimizin qayğısız böyüməsi, layiqli vətəndaş kimi yetişməsi üçün lazım olan bütün imkan və şərait yaradılıb: "Yeni Azərbaycan Partiyası hökumətimizin müəyyənləşdirdiyi bu siyasətin həyata keçirilməsi üçün öz imkanları çərçivəsində bir çox layihələr reallaşdırır. Bütövlükdə hesab edirəm ki, YAP gəncləri partiyamızın gücünün, fəallığının formalaşmasında ictimai-siyasi həyatda partiyamızın yaxından iştirak etməsində əhəmiyyətli bir qüvvəyə, gücə çevriliblər".

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması bizi sevindirir: "Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Partiyamızın 700 mindən çox üzvü var və onların təxminən 40 faizi gənclərdən ibarətdir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər".

Bu gün Azərbaycanın öz tarixinin ən gözəl dövrünü yaşadığını deyən Əli Əhmədov bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq hissi yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ölkəmizdə gənclərin inkişafı, təhsili, məşğulluğu, eləcə də idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən YAP sədrinin müavini Əli Əhmədov deyib: "Gənclərimiz Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar".

Gənclərlə görüşdə Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, eləcə də gənclərin nümayəndələri çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, onların dövlətə, dövlətçiliyimizə sədaqətindən, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin uğurlarından danışıblar.

# Müdafiə naziri cəbhəboyu zonada tikintisi davam edən hərbi hissələrə baş çəkib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektdə olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tikinti işlərinin gedişini yoxlayan general-polkovnik Zakir Həsənov inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.



# İsmayıllıda Yeni Azərbaycan Partiyasının Şirvan bölgəsi üzrə rayon təşkilatlarının ərazi ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib





Sentyabrın 21-də İsmayıllı şəhərində Yeni Azərbaycan Partiyasının İsmayıllı, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir və Şamaxı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədən əvvəl Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olub. Zona müşavirəsində YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP İdarə Heyətinin üzvü, deputat Eldar İbrahimov, Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruzəli Aslanov iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlət başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

YAP sədrinin müavini-icra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

Qeyd edək ki, Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzində Qarabağ müharibəsi veteranları ilə də görüşüb. Əli Əhmədov Qarabağ müharibəsi veteranlarının qayğıları ilə maraqlanıb.

# Çin nümayəndə heyəti Heydər Əliyev Mərkəzi ilə tanış olub

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 21-də Heydər Əliyev Mərkəzində olub.



AZƏRTAC xəbər verir ki, qonaqlara dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev mərkəzi haqqında məlumat verilib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Bundan əlavə, mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Bildirilib ki, məşhur memar Zaha Hadidin layihəsi əsasında inşa edilmiş mərkəz dünya memarlıq inciləri siyahısına daxil edilib.

Qonaqlar əvvəlcə Heydər Əliyev Muzeyi ilə tanış olublar. Nümayəndə heyətinin diqqətinə çatdırılıb ki, muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Hər bir mövzu üzrə materiallar Azərbaycan və ingilis dillərində təqdim edilir. Muzey qonaqların böyük marağına səbəb olub.

Çin nümayəndə heyətinin üzvləri mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olublar. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı unikal eksponatlar nümayiş etdirilir. Sərgidə qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri təqdim edilib. Mis məmulatlar sərgisi qonaqların xüsusi marağına səbəb olub.

Diqqətə çatdırılıb ki, Azərbaycanın qədim çalğı alətləri orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimləri, qədim sikkələr nümayiş etdirilən sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Nümayəndə heyəti klassik avtomobil sərgisi ilə də tanış olub.

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

# 8 ayda 8,6 milyard manat vəsait

## Prezident İlham Əliyevin iqtisadi islahatları Azərbaycanı yerli və xarici investorlar üçün əlverişli biznes məkanına çevirib

*Əvvəli 1-ci səh.*



İqtisadi göstəricilərə nəzər yetirsək bunu aydın şəkildə görürük. Ona əsasən deyə bilərik ki, həqiqətən Azərbaycanda əlverişli biznes, investisiya mühiti mövcuddur. Sərmayədarların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilib. Məhz bu tədbirlərin nəticəsidir ki, təkcə ötən il iqtisadiyyata 15,3 milyard dollar investisiya yatırılıb. Bu məbləğin 8,2 milyard dolları xarici investisiyadır.

Dünyada və regionda sərmayə həcmi azaldığı halda Azərbaycanda bu ilin 8 ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 8 milyard 627,2 milyon manat vəsait yönəldilib. Vəsaitin 66,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri olub. Daxili mənbələrdən isə əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 70,7 faizini təşkil edib.

Onu da əlavə edək ki, Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran xarici ölkələr sırasında Rusiya Federasiyası xüsusilə fərqlənir. Sentyabrın 12-də Bakıda keçirilən Azərbaycan-Rusiya biznes forumunda qeyd edilib ki, Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Rusiyanın Cənubi Qafqaz ölkələri ilə ticarət əlaqələrinin təxminən yarısı ölkəmizin payına düşür. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə ilk yerdədir. Azərbaycanda 700-dək Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına 4,7 milyard dollar sərmayə yatırıb. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyası 1,2 milyard dollar təşkil edir.

Ötən 8 ayda ölkəmizin sənaye müəssisələri və bu sahədə çalışan fərdi sahibkarların fəaliyyətini də müsbət qiymətləndirmək olar. Çünki müəssisələr və iş adamları tərəfindən 30,9 milyard manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 15,2 faiz artıb. Sənaye məhsulunun 25,1 faizi emal sektorunda istehsal olunub.

Ümumilikdə isə müstəqillik illərində ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 263 milyard dollar olub ki, bunun da 50 faizdən çoxu xarici sərmayələrdir. Ölkənin strateji valyuta ehtiyatları 49 milyard dollara yüksəlib.

Bu gün Azərbaycanda həyata keçirilən strateji islahatlar davamlı və inklüziv iqtisadi inkişafı şərtləndirən əsas amillərdəndir. Son illərdə institusional, insan kapitalı və sosial rifah, biznes mühiti, infrastruktur, kapital əlyetərliliyi və ərtaf mühitin mühafizəsinə yönəlmiş sistemli və kompleks islahatlar daha intensiv olaraq həyata keçirilir. Biznes və investisiya mühitinin davamlı surətdə yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin tətbiqi və digər istiqamətlərdə mühüm tədbirlər reallaşır, sahibkarlığa dövlət dəstəyinin sferası və coğrafiyası genişləndirilir. Bununla yanaşı, lisenziyalaşdırmanın sadələşdirilməsi, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması, investisiyaların və ixracın təşviqi mexanizmlərinin tətbiqi, güzəştli kreditləşmə faizinin aşağı salınması, kiçik və orta sahibkarlığın inkişafı tədbirləri, elektron xidmətlər şəbəkəsinin genişləndirilməsi, vergi, gömrük, sosial ödənişlər sisteminin təkmilləşdirilməsi özəl sektorun iqtisadiyyatda payını daha da artırıb. Bu ilin ötən dövründə ümumi dəyəri 404,8 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 103 milyon manat güzəştli kredit verilib və həmin investisiya layihələrinin reallaşdırılması 3500-dək yeni iş yerinin açılmasına imkan yaradıb. İlin sonunadək sahibkarlara daha 120 milyon manat kreditin verilməsi planlaşdırılır.

Prezident İlham Əliyev aprelin 26-da Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumundakı çıxışı zamanı dünyanın aparıcı şirkətlərini işbirliyinə dəvət edərək bildirmişdi ki, Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. Ölkəmizdə infrastrukturun inkişafına çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verilir: "Bu gün Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. Dünya Bankının ən son "Doing Business" hesabatına görə, Azərbaycan biznes mühiti üzrə 25-ci pillədədir və bir il ərzində biz mövqeyimizi əsaslı şəkildə yaxşılaşdırmışıq. İndi Azərbaycan dünyada ən çox islahat aparan on ölkə sırasındadır".

Beynəlxalq təşkilatların hesabatlarına nəzər yetirdikdə deyilənlər bir daha təsdiqini tapır. Ümumdünya İqtisadi Forumu (Davos Forumu), Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Müstəqil Dövlətlər Birliyinin Statistika Komitəsi və digər qurumların hesabatlarında Azərbaycanda investisiyalar üçün münasib biznes mühitinin yaradılması, əcnəbi sərmayəçilər üçün hökumət tərəfindən əlverişli sərmayə imkanlarının təmin edilməsi, eləcə də digər tədbirlərin intensiv xarakter alması əksini tapıb.

Təkcə bir fakta nəzər yetirək. Hazırda Azərbaycanda fəaliyyət göstərən 5 sənaye parkında investorlar, yəni rezidentlər üçün vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. Bundan başqa, sənaye parklarında dövlət vəsaitləri hesabına müasir infrastruktur yaradılır, sahibkarların vəsaitlərini investisiya qoyuluşuna yönəltmələri stimullaşdırılır.

Avropa İttifaqının ötən ildəki "Azərbaycan investisiya məkanı kimi" sorğusunda iştirak etmiş şirkətlərin 66 faizi "Azərbaycana yenidən investisiya qoyardınızmı?" sualına müsbət cavab verib, ölkəmizdəki təhlükəsizliyi, siyasi və sosial sabitliyi yüksək qiymətləndiriblər.

Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycanın 10 ən islahatçı ölkə kimi tanınması və 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması, əlbəttə ki, Azərbaycandakı investisiya mühiti ilə bağlı söylənən fikirləri bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yüksəliş və inkişafın təməli

*Əvvəli 1-ci səh.*

Neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

Prezident İlham Əliyev aparılan danışıqlar prosesini belə xatırlayır: "Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynamışdır. Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün "Əsrin kontraktı" bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir".

1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, SOCAR, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) ilə müqavilə imzalandı. Bu saziş müstəqil Azərbaycanın yeni tarixinin şanlı səhifəsini açdı.

Ulu Öndər Azərbaycanı məhvolma təhlükəsindən xilas etməklə bərabər, neft sənayesini də böhran və tənəzzüldən qurtardı. Bununla da müstəqil dövlətimizin yeni neft strategiyasının və doktrinasının əsası qoyuldu.

1995-ci ilin fevralında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı. 1997-ci il noyabrın əvvəlində isə "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilkin neft alındı və hasilat başlandı. Bu, Azərbaycanın yeni neft strategiyasının uğurlarının əsası oldu. 1998-ci ildə neftimiz Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. "Çıraq" yatağından hasil olunan neftin Supsa limanından ixracı ilə Azərbaycan nefti ilk dəfə olaraq 2 istiqamət üzrə dünya bazarlarına çıxarılmağa başlandı. 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu və 2006-cı ilin mayında Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı.

Bir sözlə, Ulu Öndər Heydər Əliyev böyük bir missiyanı uğurla həyata keçirdi, bununla da "Əsrin müqaviləsi"ni respublikamızın tarixinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazdı. Əlbəttə ki, 25 il öncə imzalanan neft müqaviləsi məhz Heydər Əliyevin nailiyyəti, onun əzmkarlığının nəticəsi idi. Yeni yaranmış dövlətin gələcəyinə, sabitliyinə böyük və haqlı şübhə ilə yanaşan fövqəlgücləri Azərbaycanın inkişafının lokomotivinə çevriləcək bir kontraktda birləşdirmək bacarığı sayəsində Ulu Öndər bütün uğurlarımızın səbəbkarına çevrildi. Dünyanın fövqəlgücləri hesab etdiyimiz dövlətlər dahi liderə güvənərək Azərbaycanın tərəfdaşına çevrildilər, onun iqtidarına dəstək verdilər.

"Əsrin müqaviləsi"ndən tam 23 il sonra, 2017-ci il sentyabrın 14-də Bakıda daha bir mühüm tarixi hadisə baş verdi. Müstəqil siyasətin təməl daşı hesab olunan bu müqavilənin ildönümünə təsadüf edən təntənəli gündə yeni saziş imzalandı. Azərbaycan hökuməti və Dövlət Neft Şirkəti (SOCAR), "BP", "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətləri ilə birlikdə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş, yenidən işlənmiş saziş bağladı. Bu, "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutan saziş idi. Yeni saziş ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsini şərtləndirdi. Həmçinin SOCAR-ın payı 11,6 faizdən 25 faizə yüksəldi və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil etdi.

Həmin mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirdi ki, "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu sazişin gözəl nəticələrini öz həyatında görür. Yeni imzalanan saziş isə 1994-cü ildə imzalanan sazişdən daha da böyük miqyaslıdır. Dövlət başçısı "Əsrin müqaviləsi"nin 23 il ərzində ölkəmizə çox böyük siyasi, iqtisadi dividendlər qazandırdığını vurğulayaraq dedi ki, bu müqavilə neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəltməyə real imkanlar verəcək.

XXI əsrin müqaviləsi ilə Azərbaycan Avrasiya məkanında malik olduğu əlahiddə iqtisadi və geosiyasi mövqeyinin azı daha 30 il davamlılığını təmin etdi. Həmçinin böyük neft-qaz ixracatçısı kimi gələcək inkişafın yeni etibarlı bünövrəsini formalaşdırdı.

Əgər "Əsrin müqaviləsi" Azərbaycanın dünya birliyində müstəqil siyasət yürütməsi üçün real zəmin yaratmış oldusa, "Yeni Əsrin Müqaviləsi" ölkəmizin sosial-iqtisadi inkişafı, dünyada söz sahibinə çevrilməsi istiqamətində bazis rolunu oynadı. Cənab İlham Əliyevin imza atdığı bu müqavilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın tərəqqisinin lokomotivi oldu.

Artıq 25 ildir ki, "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadiyyatının və xalqın rifahının yüksəlməsinə xidmət etməkdədir. Bu layihənin ən böyük əhəmiyyəti Azərbaycana böyük maliyyə ehtiyatlarının gəlməsi, bunun hesabına iqtisadiyyatının dinamik inkişaf etdirilməsi, insanların rifah halının yaxılaşması, ölkədə infrastrukturun yeniləşməsidir. 25 il öncə imzalanan müqavilə bu gün də öz aktuallığını göstərməkdədir. Məhz Azərbaycan Prezidentinin dərindən düşünülmüş neft strategiyası nəticəsində ölkəmiz regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa ilə Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan dövlətə, dünyanın əsas neft-qaz ixracatçısına çevrilib.

Dövlət başçısı bu uğurları dəyərləndirərkən qeyd edib ki, bu gün Azərbaycan yeni müqavilələr imzalayır, ölkəmizin neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib.

Bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

Cənab İlham Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi tərəqqisinin təmin edilməsinə yönəldilib.

Bu gün beynəlxalq aləmdə kifayət qədər tanınan, dünya birliyində siyasi, iqtisadi qüdrəti ilə fərqlənən, beynəlxalq əməkdaşlıq arenasında inam və etibarı artan, müstəqil siyasət aparan, çox yüksək və müsbət nüfuza malik olan Azərbaycanın 49 milyard dollar valyuta ehtiyatları var. İqtisadiyyatımız dinamik şəkildə inkişaf edir, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmaqdadır. Ötən 25 ildə ölkə iqtisadiyyatına yatırılan 263 milyard dollarlıq investisiya da təsdiq edir ki, Azərbaycan Cənubi Qafqazda əlverişli biznes məkanı və ən etibarlı tərəfdaşdır.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan sürətli inkişaf mərhələsinə daxil oldu

Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox çətin oldu. Belə ki, siyasi sabitsizlik, tez-tez hakimiyyət dəyişikliyi, xaos və hərc-mərclik son həddə çatmışdı. Digər tərəfdən, iqtisadi böhran və inflyasiya əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu. Bununla yanaşı, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilmişdi. Bu da dövlətdən əlavə vəsait xərclənməsini tələb edirdi. Digər tərəfdən, Ermənistanla müharibə vəziyyətində olduğumuz üçün ordunun təminatına pul lazım idi. Xəzinə isə boş idi.



Ölkənin belə çətin vəziyyətində xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Təcrübəli və uzaqgörən siyasətçi olan Ümummilli Lider çıxış yolunu neft sənayesinin müasir dövrün tələblərinə uyğun yenidən qurulmasında gördü. Bunun üçün böyük siyasi iradə və uzaqgörənlik lazım idi. Çünki "Əsrin müqaviləsi"nin imzalanmasına mane olmaq istəyən böyük qüvvələr vardı. Həmin dövrdə isə Azərbaycan öz tarixinin bəlkə də ən zəif dövrünü yaşayırdı. Aparılan uğurlu siyasət nəticəsində Ulu Öndər Heydər Əliyev 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

Beləliklə, 1997-ci ilin noyabrında ilkin neft hasil edildi. Sonrakı illərdə neft satışından əldə edilən gəlirdən ölkənin inkişafı üçün istifadə edilməyə başlandı. İlk növbədə əhalinin, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına vəsait ayrıldı. Sonra ölkənin ümumi inkişafının təmin edilməsindən ötrü nəhəng sosial və infrastruktur layihələrinin icrasına start verildi. Yeni asfalt və dəmir yolu xətləri çəkildi və ya əsaslı təmir edildi, enerji və qaz təchizatı sistemi isə müasir dövrün tələbləri səviyyəsinə qaldırıldı. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan 34-cü yerdədir.

"Əsrin müqaviləsi" ölkənin gəlirinin artmasında, xüsusilə maliyyə vəziyyətinin sabit saxlanmasında əsas mənbə olaraq qalır. Təkcə "Azəri-Çıraq-Günəşli"dən (AÇG) 2001-ci ildən bəri 143 milyard 366 milyon dollar gəlir əldə edilib. Bu ilin 6 ayı ərzində ölkənin valyuta ehtiyatlarının 49 milyard dollara çatması da "Əsrin müqaviləsi"nin nəticəsidir.

Neft sənayesinin dirçəldilməsi ölkəmizə xarici kapital qoyuluşunu da təmin etdi. Belə ki, 2017-ci ilə qədər Azərbaycanın dənizdəki neft yataqlarının işlənməsinə təxminən 33 milyard dollar investisiya qoyulub və "Azəri-Çıraq-Günəşli"dən 3,2 milyard barel neft hasil edilib. Eyni zamanda həmin yataqlar blokundan ümumilikdə 30 milyard kubmetr səmt qazı hasil edilərək ölkəmizə əvəzsiz verilib.

Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin fəaliyyət müddətinin uzadılması, daha çox neft və qazın hasil edilməsi üçün yeni müqavilənin bağlanması ideyasını irəli sürdü. Bunun sayəsində 2017-ci ilin sentyabrında "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadıldı. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Yeni sazişin əhatə etdiyi dövrdə beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəniləcək. Eyni zamanda, yeni sazişin imzalanması nəticəsində ölkəmizə növbəti 32 il ərzində AÇG-yə 30 milyarddan artıq sərmayə qoyulmasına imkan yarandı.

Prezident İlham Əliyev cari il yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda son 15 il ərzində ölkənin qazandığı nailiyyətləri yüksək qiymətləndirərək demişdir: "Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik".

Neft sənayesinin və bununla yanaşı, ölkə iqtisadiyyatının dinamik inkişafı xarici investorların marağına səbəb olub. Bunun nəticəsidir ki, son 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan münbit sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Ölkəmiz neftdən, qazdan əldə edilən gəlirləri nəqliyyat sektoruna yönəldir ki, Azərbaycan nəinki bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin. Artıq buna nail olunub. Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi tarixi layihədir. Bu, ölkəmizə imkan verir ki, Azərbaycan ərazisindən böyük həcmdə yüklər Şərqdən Qərbə, Qərbdən Şərqə göndərilsin. Bunun sayəsində həm geosiyasi əhəmiyyətimiz artacaq, həm də daim valyuta qazanacağıq. Eyni zamanda "Şimal-Cənub nəqliyyat dəhlizi"nin yaradılması da böyük önəm daşıyır.

Əlbəttə ki, bu işlərin görülməsi genişmiqyaslı beynəlxalq əməkdaşlıq tələb edir. Azərbaycan bu sahədə də təşəbbüskar ölkə kimi öz müsbət rolunu oynayıb. Bu gün "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan çoxdur və onların sayı daha da artacaq. Ölkəmiz hər iki layihədə iştirak edən tək ölkədir. Bunun sayəsində Azərbaycan Avrasiyada mühüm strateji nəqliyyat mərkəzinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, digər infrastrukturlarımız beynəlxalq əhəmiyyətlidir.

Sosial infrastrukturun yaradılması prosesi davam edir. Baxmayaraq ki, 3272 məktəb tikilib və təmir edilib. Bu məktəblər mövcud məktəb fondunun 73 faizi deməkdir. Bununla yanaşı, xəstəxanaların, olimpiya komplekslərinin tikintisi davam edir.

Həmçinin məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Keçən il 5800 köçkün ailəsi üçün evlər tikilibdir, o cümlədən 1000 ailə üçün özəl sektor evlər tikib. Cari ildə bu işlər də davam etdirilir. İlkin hesablamalara görə, əlavə olaraq ən azı 5000 ailə üçün yeni evlər tikiləcək.

Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin problemləri də həll olunur. Ötən il 626 şəhid və Qarabağ müharibəsi əlilinin ailəsinə ev verildi. Bu il isə 800 ailəyə ev veriləcək. Növbəti illərdə bu proses davam etdiriləcək ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri evlərlə təmin olunsunlar. İndiyə qədər bu qəbildən olan 6650 ailə ev alaraq mənzil şəraitini yaxşılaşdırıb.

Beləliklə, Azərbaycanın neft-qaz layihələri ölkənin davamlı inkişafına xidmət edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin yeni islahatlar kursu:

## Respublika Ağsaqqallar Şurasının, "Azərbaycan" qəzetinin

*Əvvəli 1-ci səh.*

Prezidentin rəhbərliyi altında tariximizin yeni mərhələsinə qədəm qoyuruq. Azərbaycanda bütün sahələri əhatə edən genişmiqyaslı islahatlar həyata keçirilir. Bu, həm zamanın tələbidir, həm də Prezidentin daim müasirləşən, dövrün çağırışlarına cavab verən siyasətinin təzahürüdür. Əslində, İlham Əliyevin fəaliyyəti hər zaman islahatlarla müşayiət olunub. Yeni islahatlar kursu isə əvvəlki islahatların daha müasir formada davamıdır.

Yeni islahatlar konsepsiyasının əsas məqsədi Azərbaycanı daha güclü, qüdrətli ölkəyə çevirməkdir. Əsas hədəf isə Azərbaycan vətəndaşının sosial rifahını yüksəltmək, güzəranını daha da yaxşılaşdırmaqdır. Bu məqsədlə dövlət başçısı yalnız elə son 7 ayda iki sosial paket həyata keçirib. Bu sosial paketlərin əhatə dairəsi 4 milyon insanı ötür. Onun icrasına 5,3 milyard manat vəsait ayrılıb. Özünüz görürsünüz ki, cənab İlham Əliyevin son xeyirxahlıq, qayğı siyasəti necə böyük miqyasdadır.

Maaşlar, pensiyalar, sosial müavinətlər, minimum əməkhaqqı artırıldı. Hesab edirəm ki, bu yüksəliş barədə danışarkən rəqəmlərə çox da lüzum yoxdur. Çünki ən böyük fakt hər kəsin güzəranında özünü aydın göstərən rifahdır.

Respublika Ağsaqqallar Şurasının, Qəbələ Rayon İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə təşkil etdiyi konfrans da məhz son dövrlərdəki müsbət dəyişikliklərə həsr olunub. Bugünkü tədbirimizdə Prezident İlham Əliyevin yeni islahatlar kursunun mahiyyətindən danışacaq, davamlı inkişafın iqtisadi-sosial hədəflərini müzakirə edəcəyik.

Konfransda bölgələrimizin təmsilçiləri də iştirak edir. Bilirik ki, Prezident İlham Əliyevin son sosial islahatları, maaşların, təqaüdlərin, müavinətlərin artımı bölgələrdə sakinlərin rifahını əsaslı şəkildə yüksəldib. Yerlərdə Prezidentə inam daha da artıb. Son vaxtlar bölgələrdə aqrar sektorda və iqtisadiyyatda inkişaf da geniş miqyas alıb. Kəndlər, bölgələr müasirləşir, zəruri infrastrukturlar yaradılır.

Ən əsası isə ölkədə ciddi ictimai-siyasi sabitlik var. Tədbirimizdə iştirak edən ağsaqqallar bilirlər ki, onların əsas vəzifəsi ölkədəki sabitliyin qorunmasına çalışmaq və uğurlar barədə gəncləri düzgün məlumatlandırmaqdır.

Gənclərimiz də çox hazırlıqlı, daha vətənpərvərdirlər. Gənclərimizin Heydər Əliyev siyasi kursuna, Prezident İlham Əliyevin fəaliyyətinə sədaqət göstərmələrini də mən xüsusi vurğulamaq istərdim. Biz gənclərimizə, onların fəaliyyətinə və uğurlarına nəzər saldıqca əmin oluruq ki, Azərbaycanın sabahı etibarlı əllərdədir.

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi ABDULLAYEV** bildirdi ki, Prezident İlham Əliyevin iqtisadi siyasətində Azərbaycanın hər bir bölgəsini sürətli və tarazlı inkişaf etdirmək əsas istiqamətlərdən biridir. Regionların sosial-iqtisadi inkişafını şərtləndirən dövlət proqramları bu baxımdan mühüm əhəmiyyət kəsb edir:*

- Prezident İlham Əliyevin böyük diqqət və qayğısı, müntəzəm nəzarəti ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları Qəbələdə də uğurla icra olunmuş və icra olunmaqdadır. 2500 illik qədim tarixə malik Qəbələ indi tərəqqi dövrünü yaşayır.

Hələ 2002-ci ildə Ulu Öndər Heydər Əliyev Qəbələyə səfər edərkən buranın təbiətinə, təbii şəraitinə heyranlığını dilə gətirmiş, rayonun nümunəvi turizm diyarına çevrilməsini arzu etdiyini bildirmişdi. Ümummilli Liderin bu arzusunu yerinə yetirmək üçün cənab İlham Əliyev rayonumuza xüsusi diqqət və qayğı göstərir. Prezident Qəbələyə səfərlərindən birində demişdir: "Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır". Dövlət başçısının qarşıya qoyduğu bu vəzifələr bu gün layiqincə yerinə yetirilir.

Turizm sənayesinin inkişafı üçün əlverişli coğrafi məkanda yerləşən Qəbələdə bu gün 20-dən çox turizm istirahət kompleksi var. Rayonda 7 beşulduzlu, 2 dördulduzlu, 2 üçulduzlu hotellər gələn qonaq və turistlərə xidmət edir. Ümumiyyətlə, rayondakı mehmanxana və mehmanxana tipli obyektlərin bir gündə 3000 nəfərdən çox turisti qəbul etmək imkanı var. Təkcə bu ilin 6 ayı ərzində Qəbələyə 88786 nəfər turist gəlmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.

Dağ-xizək idmanının inkişaf etdirilməsi, eləcə də turist cəlbediciliyini artırmaq məqsədilə yaradılan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi yerli və xarici turistlərin ən çox gəldiyi istirahət mərkəzlərindəndir. Qafqaz regionunda ən gözəl əyləncə mərkəzi kimi tanınan "Qəbələnd" Əyləncə Mərkəzi heyranedici istirahət məkanlarındandır. Qəbələyə gələn hər kəs Qaraçayın hər iki sahilində yerləşən park bulvarın möhtəşəmliyinə, zənginliyinə, əsl istirahət məkanı olmasına heyran qalır.

Turizm obyektlərində turistlərə dünya standartları səviyyəsində xidmət göstərilməsi üçün kadrlar hazırlanması da diqqət mərkəzindədir. Bu məqsədlə rayonda turizm və hotelçilik üzrə peşə tədris mərkəzi fəaliyyət göstərir. Mərkəzi bitirmiş mütəxəssislər Qəbələdə, digər bölgələrdə, həmçinin Bakı şəhərində yerləşən turizm-istirahət obyektlərində müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

Bu gün Qəbələ özünün sosial-iqtisadi gücündən, zəngin mənəvi həyatından, tarixi köklərindən bəhrələnərək daha da müasirləşib, sərhədlərimizdən çox-çox uzaqlarda tanınıb. Rayonumuz beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edir. Son illər dünya siyasətçilərinin iştirakı ilə Qəbələdə keçirilən forumlar, sammitlər, beynəlxalq idman yarışları, Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə təşkil edilən və planetin ən məşhur musiqi xadimlərinin iştirakı ilə keçirilən, bütün dünyaya səs salmış beynəlxalq musiqi festivalları, incəsənət sərgiləri və digər tədbirlər ölkənin, o cümlədən Qəbələnin sosial-iqtisadi inkişafının təntənəsi kimi qiymətləndirilə bilər.

Qəbələdə də idmana böyük qayğı göstərilir. Belə ki, Qəbələ şəhərində Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib. Bundan başqa, müasir tipli stadionlar və Stend Atıcılığı Kompleksi də idmançıların istifadəsindədir və burada beynəlxalq tipli yarışlar keçirilir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq Qəbələdə bir çox iri sənaye müəssisələri tikilib istifadəyə verilmişdir ki, onların istehsal etdiyi məhsullar təkcə ölkə daxilində deyil, xarici bazarlarda da şöhrət qazanmışdır. Belə ki, rayonda bir saatda 5 ton qabıqlı fındıq və ya 1300 kiloqram təmizlənmiş fındıq ləpəsi emal etmək gücündə olan, birdəfəyə 250 ton qabıqlı fındıq qəbul edən fındıq emalı müəssisəsi fəaliyyət göstərir. Qəbələ şərab zavodunda artıq on beş ildir ki, yüksəkkeyfiyyətli şərablar, konyaklar, tünd içkilər istehsal olunur. Burada istehsal olunan məhsulların 50 faizdən çoxu müxtəlif ölkələrə ixrac olunur. Aspi-"Savalan" üzüm emalı və şərab istehsalı zavodunun şöhrəti də dünyanı gəzir. Bu gün "Savalan" da 18 çeşiddə istehsal olunan məhsullar Çin, Yaponiya, Rusiya, Hollandiya, Almaniya, Fransa, Türkiyə, Ukrayna, Belarus kimi ölkələrə göndərilir.

"Gilan" Qida Şəhərciyindəki meyvə şirələri və sərinləşdirici içkilər istehsalı müəssisəsində hazırlanan məhsulların sorağı ABŞ, Rusiya, Almaniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Yaponiya, Yeni Zelandiya, Malayziya, İsrail, Avstraliya, Türkmənistan, Tacikistan və s. ölkələrdən gəlir.

Rayonda 2003-cü ilin oktyabr ayından 1 iyul 2019-cu ilədək 17697-si daimi olmaqla 19495 yeni iş yerləri açılmışdır. Bu ilin ötən 6 ayı ərzində açılmış 854 iş yerinin hamısı daimidir. 6 ay ərzində Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1090 nəfərdən 540 nəfər münasib işlə təmin olunmuşdur. Son illər əhalinin daimi işlə təmin olunması, sosial müdafiəyə ehtiyacı olan ailələrin rifahının yaxşılaşdırılması məqsədilə ölkəmizdə, o cümlədən rayonumuzda özünüməşğulluq proqramının həyata keçirilməsinə başlanılmışdır.

Bu ilin əvvəlindən başlayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial islahatlar konsepsiyası ölkənin hər yerində olduğu kimi, Qəbələdə də böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Əməkhaqlarının 20-50 faiz arasında qaldırılması, minimum əməkhaqqının bir ildə 2 dəfə qaldırılaraq 250 manata, minimum pensiyanın 200 manata çatdırılması əhalinin rifah halının yüksəlməsini təmin etmişdir. Hazırda minimum əmək haqqı və minimum pensiya məbləği zəruri istehlak ehtiyacını xeyli qabaqlayır. Bütün bu islahatları əhali çox böyük razılıqla qarşılayır. İndi əhalinin rifah halını 15-20 il öncə ilə müqayisə etsək, nə qədər müsbət dönüş olduğunu görərik. Ucqar kəndlərdə iştirak etdiyim görüş-qəbullarda illər öncə əhalinin bir hissəsi maddi yardım, abad yol, qaz və işıq xahiş edirdisə, bu gün çoxzolaqlı internetin daha sürətli olmasını arzulayırlar. Bu yüksək inkişafın, rifahın göstəricisidir.

Sosial sahələrin inkişafı daim diqqət mərkəzindədir. Dövlət başçısı cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı sayəsində son illər rayonda 29 ümumtəhsil məktəb binası tikilmiş və təmir olunmuşdur. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə başlanılmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Qəbələdə yeni məktəb binaları, uşaq bağçaları tikilmiş və təmir olunmuşdur. Nic qəsəbə 2 nömrəli, Nohurqışlaq və Daşca kənd tam orta məktəblərinin açılışında möhtərəm prezidentimiz İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak



etmiş, bu təhsil ocaqlarına xeyir-dua vermişlər. Keçən dərs ilində Zərgərli kənd ibtidai, Nohurqışlaq kənd ümumi, Laza kənd ümumi, Cığatelli kənd tam orta məktəbləri üçün modul tipli məktəblər istifadəyə verilmişdir. Qaradeyin kənd orta, Şəfili kənd ibtidai məktəbləri üçün modul tipli, Vəndam qəsəbə 2 nömrəli məktəb üçün birtipli layihə əsasında 360 yerlik yeni məktəb binası yaxın günlərdə istifadəyə veriləcəkdir.

Qəbələdə tibb xidmətinin müasir tələblər səviyyəsinə qaldırılması üçün ardıcıl iş aparılır. Bu sahədə xeyli nailiyyət əldə olunub. Ölkə prezidenti cənab İlham Əliyevin rayonumuza göstərdiyi böyük diqqət və qayğının nəticəsidir ki, Qəbələ Müalicə Diaqnostika Mərkəzi tikilib istifadəyə verilmiş və hazırda Qəbələ şəhərində tibbin son nailiyyətlərinə cavab verəcək yeni xəstəxana binası tikilir.

Sosial-iqtisadi sahədə sürətlə inkişaf edən Qəbələnin dünyanın bir sıra ölkələrinin ayrı-ayrı şəhərləri ilə dostluq, qardaşlıq əlaqələri də inkişaf edir. Belə ki, indi bizim Ukrayna Respublikasının Rovno, Misir Ərəb Respublikasının Cənubi Sinay vilayəti, Rusiyanın Kislovodsk, Belarusun Qrdono, Koreya Respublikasının Qyonçu, Polşa Respublikasının Qnezno, İsrailin Yokneam, Vyetnamın Quanq Nam əyaləti və Fransa Respublikasının Kann şəhərləri ilə dostluq və əməkdaşlıq əlaqələrimiz var. Bu əlaqələr ildən-ilə möhkəmlənir və genişlənir.

***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV** dedi ki, inkişaf etmək, yüksəlmək tarixən hər bir dövlətin və onun xalqının arzusu olub. Bu gün inkişaf etmiş ölkələrin keçdiyi yola nəzər salsaq, onların indiki səviyyəyə gəlib çatmaları üçün böyük bir yol qət etdiklərini, hansı mərhələlərdən keçdiklərini görərik:*

- Azərbaycan da tarixi və iqtisadi qanunuyğunluqlarla özünün inkişaf yolundadır. Amma bizi fərqləndirən cəhət odur ki, qısa müddətdə qazandığımız uğurlar, keçdiyimiz inkişaf yolu bir neçə onilliyə, qərinələrə bərabərdir. Ötən 28 illik müstəqillik tariximizin heç də bütün mərhələlərinin firavan olmadığını nəzərə aldıqda isə uğurlarımızın miqyasının daha böyük olduğunu görərik. Bu mənada gənc respublikamız öz inkişafı ilə dünyada həm də nümunəyə çevrilib.

Bütün bu uğurlar dünya ictimaiyyətinin qəbul etdiyi gerçəklikdir. Bu gerçəkliyin əsası isə vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, istiqamətləri müəyyən edilib. Ona görə də Azərbaycanın yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən ilk olaraq Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu Öndər tərəfindən görülən böyük işlərin, yerinə yetirdiyi tarixi missiyalarının nəticəsidir ki, xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanını əldə edib, xoşbəxt gələcəyi üçün bütün təminatları yaradıb.

Ötən 16 ildə isə Ulu Öndərin inkişaf yoluna çıxardığı respublikamız İlham Əliyev fenomeninin yüksək idarəçilik və liderlik keyfiyyətləri sayəsində özünün yeni inkişaf mərhələlərini yaşayır. Azərbaycan bu dövrdə son dərəcə möhtəşəm nailiyyətlərə imza atıb, müstəqil siyasət yürüdüb, qarşıya qoyduğu hədəflərə inamla yetişib. Ümummilli Liderin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti ilə həyata vəsiqə alması bugünkü nailiyyətlərimizi təmin etməkdədir. Odur ki, ötən 16 il Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üçün onilliklərə bərabər inkişaf dövrüdür desək yanılmarıq.

İlham Əliyev fəaliyyətinin ilk günlərindən ölkənin inkişafı və xalqın sosial rifahının yüksəlişinə xidmət edən cəsarətli və islahatçı addımlar atıb. Bəzi uğurlarımıza nəzər salmaqla biz keçdiyimiz inkişaf yolunun möhtəşəmliyini görərik. İlham Əliyev yeni neft strategiyasını qətiyyətlə davam etdirdi. Bu yolda beynəlxalq təzyiqləri inamla dəf etdi və artıq 15 ilə yaxındır ki, Bakı-Tbilisi-Ceyhan neft xətti ilə neftimiz dünya bazarlarına çıxarılır.

"Neft xalqlara xoşbəxtlik də gətirə bilər, bədbəxtlik də. Mən çalışacam ki, neft Azərbaycan xalqına xoşbəxtlik gətirsin. Çünki Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir" deyən cənab Prezident yürütdüyü düşünülmüş iqtisadi kurs nəticəsində bu dövrdə neftdən əldə olunan gəlirlərlə həm ölkəni sürətli iqtisadi inkişaf yoluna çıxardı, həm də insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm işlər görüldü. Məsələn, 16 ildə iqtisadiyyatımızın 3,2 dəfə artması Prezidentin özünün qeyd etdiyi kimi, rekord göstəricidir. Bu, onu təsdiq edir ki, bu illər ərzində iqtisadi cəhətdən Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur.

Azərbaycanda baş verən inkişafın əsas xüsusiyyətlərindən biri qarşıya qoyulan məqsədlərə çatmaq üçün konkret dövlət proqramlarının qəbulu, dəqiq və aydın hədəflərin müəyyənləşdirilməsidir. Bu illər ərzində Prezident İlham Əliyev hər bir sahə üzrə konkret və ünvanlı proqramı imzalayıb ki, bu da hökumətin öz vəzifələrini dinamizm və ardıcıllıqla həyata keçirməyə imkan verib. Təbii ki, bu sırada regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramlarını xüsusilə qeyd etməliyik. Bütün bunların sayəsində respublikanın bölgələrində inkişaf prosesləri sürətləndi və 2004-cü ildən ötən müddətdə Azərbaycanda ümumi daxili məhsul 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, kənd təsərrüfatı istehsalı 1,7 dəfə artdı. Dünyada qısa müddətdə belə inkişaf göstəricilərinə nail olmuş dövlət göstərmək yəqin ki, mümkün deyil!

Təbii ki, bu dövrün sosial uğurlarının statistikası da təqdirəlayiqdir. 2 milyon iş yeri açılması, maaşların 7, pensiyaların 9 dəfə artması, işsizliyin 5 faizə düşməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan sosial nailiyyətlərdir. Sosial məsələlərlə bağlı ən mühüm işlərdən biri də çadır şəhərciklərinin ləğvidir. Artıq Azərbaycanda Neft Fondunun vəsaitləri hesabına 105 qaçqın və məcburi köçkün şəhərciyi salınıb. Təbii ki, torpaqlarımız azad edildikdən sonra dövlətimiz həmin insanların doğma yurdlarında özlərinə ev-eşik qurmaları üçün əlindən gələni əsirgəməyəcək. Torpaqlarımızın azad ediləcəyi gün isə uzaqda deyil. Sülh danışıqları dalana dirənəcəyi təqdirdə Azərbaycan istənilən yolla ərazilərini azad etmək hüququnu özündə saxlayır. Artıq dünyanın ən güclü orduları sırasında yer alan Silahlı Qüvvələrimiz istənilən an İlham Əliyevin Ali Baş Komandanlığı ilə öz müqəddəs vəzifəsini yerinə yetirməyə hazırdır.

Bu dövrdə Azərbaycan həm də yüksək gəlir gətirəcək digər nəhəng layihələri - "Cənub qaz dəhlizi"ni, Bakı-Tbilisi-Qars dəmir yolu xəttini çəkib, Türkiyədə "Star" zavodunu inşa edib. Hansı ki, bu layihələr əsrlər boyu xalqımıza xidmət edəcək. O cümlədən yol-nəqliyyat infrastrukturumuz tamamilə yeniləndi. Belə ki, bu illərdə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən hissəsində mühüm layihələr həyata keçirildi, 15 min kilometr yeni avtomobil yolu çəkildi, 7 beynəlxalq hava limanı tikildi. Artıq ölkədə qazlaşdırma 96 faizə çatıb. Bu sırada diqqəti çəkən əsas məqamlardan biri ondan ibarətdir ki, 70 ildə sovet hökumətinin qazlaşdırmadığı, yolu olmayan ucqar dağ kəndlərinə təbii qaz verildi, yol çəkildi. 16 ilin başqa bir mühüm uğuru Azərbaycanın kosmos dövlətinə çevrilməsidir. 31 yeni elektrik stansiyasının inşası, 4 su anbarının salınması isə bu gün ölkədə gedən inkişaf proseslərinə mühüm təkan verib.

Azərbaycanın inkişafını bütün bölgələrimizin, o cümlədən Qəbələ rayonunun timsalında görmək mümkündür. Sovet dövründə Qəbələ perspektivsiz rayonlardan hesab edilirdi. Kənd təsərrüfatı rayonu olsa da, bəzi sahələr inkişafdan geri qalırdı. Amma bu gün Qəbələ nəinki Azərbaycanda və Cənubi Qafqazda, dünyada tanınan bir diyara çevrilib. Ən müxtəlif ölkələrdən hər il buraya on minlərlə turist gəlir. Hər il Qəbələdə tanınmış ifaçıların iştirakı ilə beynəlxalq musiqi festivalı keçirilir. Yeni istifadəyə verilmiş istehsal və turizm-kurort müəssisələrində rayon sakinləri işlə təmin olunurlar. Xarici ölkələrdə səfərdə olarkən bəzən bizi hansısa müasir standartlarla təəccübləndirmək istəyirlər. Amma biz onlara deyirik ki, bundan da yaxşısı Qəbələdə var. Beləliklə, Qəbələ inkişaf edən Azərbaycanın ən gözəl nümunələrindən biri kimi fərqlənir və bütövlükdə ölkəmizdə gedən inkişaf proseslərinə layiqli töhfələr verir.

Bir məsələyə də toxunmaq istəyirəm. Məlumdur ki, dünyanın bir sıra yerlərində özünü göstərən ziddiyyətlər aradan qalxmaq əvəzinə daha da dərinləşir. Hər ötən gün müxtəlif ölkələrdə davam edən daxili siyasi və hərbi çəkişmələrlə yadda qalır. Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Cənab Prezidentin də qeyd etdiyi kimi, ölkəmizdə təhlükəsizlik, ictimai-siyasi sabitlik tam təmin olunub. Məhz bu sabitlik və sarsılmaz xalq-iqtidar birliyi Azərbaycanın inkişafını şərtləndirən mühüm uğurlarımızın sırasında yer alır. Əldə olunan bütün uğurların təməlində ölkəmizdəki sabitlik dayanır.

*Ağsaqqallarla gənclərin bir araya gələrək fikir mübadiləsi aparmalarının vacib olduğunu bildirən **Milli Məclisin Səhiyyə komitəsinin sədri, Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Əhliman ƏMİRASLANOV**un sözlərinə görə, konfransın müzakirə etdiyi mövzu olduqca aktualdır:*

- Bu gün Azərbaycan Ağsaqqallar Şurası, "Azərbaycan" qəzeti və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfrans ölkəmiz, xalqımız üçün son dərəcə vacib olan məsələlərə - iqtisadi inkişafa, xüsusilə də sosial məsələlərə həsr olunub və ilk dəfə olaraq yeni bir formatda keçirilir. Ölkənin avanqard qüvvəsinin bu toplantıda iştirakı və gənclərin sosial-iqtisadi məsələlərlə bağlı fikir söyləmələri bizim üçün çox vacibdir.

Azərbaycanda sosial sahə Ulu Öndər Heydər Əliyev siyasətinin ana xəttini təşkil edib. İstər Azərbaycana rəhbərliyinin birinci dövründə, istərsə də 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra dahi lider bu sahəyə son dərəcə diqqət və qayğı göstərib. Ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılması Heydər Əliyev siyasətinin prioriteti olub. Bu gözəl ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə cənab Prezidentin ilin əvvəlindən başlayaraq böyük sosial paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar bunu bir daha təsdiqləyir. Azərbaycanın dövlət büdcəsi hər zaman sosialyönümlü olub. Dünyada az sayda ölkələr tapılar ki, büdcəsinin 34 faizdən artıq hissəsi sosial sahələrə yönəlmiş olsun. Hesab edirəm ki, bu rəqəm gələn ilin dövlət büdcəsində daha yüksək olacaq.

Əgər 10-12 il öncəki tarixi xatırlasaq, Azərbaycan səhiyyə sistemində baş verən yeni dəyişikliklərin, reallaşan uğurların şahidi olarıq. Ancaq onu da vurğulamalıyıq ki, böyük nailiyyətlər qazansaq da, bu gün səhiyyə sahəsində problemlərimiz mövcuddur və hələ görüləcək işlər var. Bunu Prezident İlham Əliyev də öz çıxışlarında dəfələrlə qeyd edib.

Əvvəllər ölkəmizdə bir çox insanın həyatı üçün təhlükə təşkil edən xəstəliklərin müalicəsi mümkün deyildi. Bunun üçün nə maddi-texniki bazamız, nə də kadr potensialımız var idi. Ancaq son illərdə məhz maddi-texniki bazanın möhkəmləndirilməsi, yeni xəstəxanaların, diaqnostik mərkəzlərin istifadəyə verilməsi, eləcə də yüksəkixtisaslı kadr potensialının hazırlanması sahəsində böyük işlər görülüb. Bu sahənin mütəxəssisi kimi onu deyə bilərəm ki, bu gün diaqnostikası və müalicəsi mümkün olmayan bir xəstəlik yoxdur ki, bunu Azərbaycanda həyata keçirmək mümkün olmasın! Yəni ölkəmizdə müalicəsi mümkün olmayan xəstəlik yoxdur!

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə 700-ə yaxın xəstəxana, diaqnostik mərkəz tikilib, yaxud yenidən qurulub. Bu səhiyyə ocaqlarının hər biri ən müasir tibbi avadanlıqlarla təchiz olunaraq əhalinin istifadəsinə verilib.

Biz onunla da razılaşırıq ki, həmin müalicə, diaqnostika mərkəzləri hər bir insan üçün əlçatan deyil. Bütün bunları nəzərə alan dövlət başçısı gələn ildən ölkədə icbari-tibbi sığortanın tətbiqinə başlanılması ilə bağlı sərəncam imzalayıb. Bu sistemin tətbiqi mövcud problemlərin aradan qaldırılması ilə nəticələnəcək. Yəni icbari-tibbi sığortanın həyata keçirilməsi ilə insanları narahat edən istənilən xəstəliyin müalicəsi, əməliyyatı sığorta hesabına həyata keçiriləcək. Bu siyahı çox böyükdür və 200-dən çox xəstəlik növləri öz əksini tapıb ki, insanlarımız icbari-tibbi sığortanın tətbiqi ilə sağlıq problemlərini həll edə biləcəklər.

Bəzi qonşu ölkələrin təcrübəsi göstərdi ki, yüksək səviyyəli maddi-texniki bazası olmayan, kadr potensialı, həkim ordusu olmayan bir ölkədə tələsik icbari-tibbi sığortaya keçmək gözlənilən nəticəni vermir. Ona görə də ölkəmizdə bu gün çox geniş imkanlara malik xəstəxanaların, diaqnostik mərkəzlərin, yüksək peşəkar kadr potensialının mövcudluğu onu deməyə əsas yaradır ki, Azərbaycanda bu sistemin tətbiqi uğurla reallaşacaq.

Xüsusi olaraq vurğulayım ki, Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında pilot layihələr də həyata keçirilib. Bu ərazilərdə icbari-tibbi sığortanın tətbiqi nəticəsində əhali arasında ölüm faizi çox ciddi şəkildə aşağı düşüb, ən mürəkkəb diaqnostik üsullara müraciət edən xəstələrin sayı artdı və insanlar heç bir vəsait ödəmədən müayinə və müalicə olunmağa başladılar.

Əvvəllər insanların çoxu ölkədə açıq ürək əməliyyatı aparılmadığından dünyasını rəhmətə gedirdi. Çox cüzi hissəsi xərc çəkib xaricdə əməliyyat olunurdu. Ancaq bu gün ölkədə minlərlə insan əməliyyat olunaraq sağlam həyat yaşayır.

Milli Məclisin Səhiyyə komitəsinin rəhbəri kimi dəfələrlə həmin ərazilərə səfər edib görülən işlərlə maraqlanmışam, insanlarla söhbət etmişəm. Hər kəs razılıq edir və əhali bu sistemin tətbiqini çox yüksək dəyərləndirir.

Bu, cənab İlham Əliyevin sosial siyasətinin, xüsusilə səhiyyə sahəsində apardığı islahatların uğurlarıdır və getdikcə daha böyük nailiyyətlər əldə ediləcək. Çünki ölkədə icbari-tibbi sığortanın tətbiqi ilə ən ciddi xəstəliklərin müalicəsi belə mümkün olacaq. Əhaliyə göstəriləcək tibbi yardımın kəmiyyəti və keyfiyyəti yüksələcək.

*Respublikanın müxtəlif bölgələrindən olan dəyərli ağsaqqalların, ziyalıların iştirak etdiyi konfransın əhəmiyyətini qeyd edən **Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Ağsaqqallar Şurasının sədr müavini, tibb elmləri doktoru Sudeyif İMAMVERDİYEV** dedi:*

- Ümumi düşüncə istiqaməti hamıda eynidir: azərbaycançılıq və vətənpərvərlik. Vətənpərvərlik birinci növbədə insanın öz ölkəsinə olan sevgisidir. Azərbaycançılıq ruhu isə bu hissdən başlanır. Hesab edirəm ki, Azərbaycanın sürətli inkişafında hər birimiz öz mövqeyimizi ortaya qoymalı, xidmət etmək düşüncəsi ilə yaşamalıyıq. Bütün hallarda biz ağsaqqallar hansı dövrdən hara gəlib çıxdığımızı yaddaşda saxlamaqla gənclərə də xatırlatmalıyıq.

Heç birimiz 1990-cı illərdə Azərbaycanın başının üzərini qara buludların aldığı dövrü unutmamalıyıq. Deyim ki, daxili sabitliyin təmin olunmadığı bir cəmiyyətdə güclü dövlət qurmaq, qanunun aliliyini təmin etmək mümkün deyildir. Müdrik xalqımız o zaman qəti hərəkət edərək yeganə düzgün addımı atdı. Dünyanın böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı. Xalqımız çox gözəl bilirdi ki, ölkəni bu vəziyyətdən yalnız zəngin siyasi-iqtisadi və idarəçilik təcrübəsinə malik dahi Heydər Əliyev azad edə bilərdi. Çünki Ümummilli Liderin uzun illər ərzində qazandığı siyasi təcrübə, idarəçilik bacarığı və doğma vətəninə olan məhəbbəti onun xalqı ilə birlikdə bu missiyanın öhdəsindən şərəflə gələcəyinə heç kimdə şübhə doğurmurdu.

Heç zaman seçimində yanılmayan xalqımız həmin dövrdə çox düzgün seçim etdi. Bu olmasa idi, Allah bilir hansı günlərə düçar olardıq. Ölkədə mövcud olan problemlər tədricən həllini tapdı, iqtisadi və siyasi sabitlik təmin olundu və beləliklə, iqtisadi inkişafın sürətləndirilməsi, ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və s. istiqamətlərdə konkret proqram və layihələrin işlənib hazırlanmasına başlanıldı. Sabitliyin təmin olunması ilə Azərbaycan stabil inkişaf üçün real zəmin əldə etdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış "Əsrin müqaviləsi" isə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. Vurğulayaq ki, bu da yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Saziş Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Bütün dünya gördü ki, Azərbaycan yüksək iradə, inam, ağıl və sistemliliklə çətinliklərdən çıxıb, inkişafın zirvəsinə qalxır.

Son 16 ildir isə xalq gələcəyini düşünərək ölkədə davamlı sabitliyin və sürətli inkişafın təminatçısı, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevə etimad göstərməkdədir. Regionlarda sənaye, emal, xidmət, turizm və digər sahələr inkişaf edib. Xüsusilə də xaricdən gələn qonaqlar Azərbaycanın bölgələrinin inkişafını əyani şəkildə görürlər.

Bu gün, eyni zamanda, Azərbaycanın güclü ordusu var. Ordu quruculuğu prosesinin müasir standartlara uyğun həyata keçirilməsi ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Çünki ordu məsələlərinə yüksək diqqət yetirilərək onun gücləndirilməsi Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir. Ermənistanda bunu yaxşı bilir və haqlı olaraq narahatlıq keçirirlər.

Sonda qeyd etmək istərdim ki, bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dövlətimiz mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir.

# Davamlı inkişafın iqtisadi-sosial hədəfləri

## və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə konfransı




Səbuhi ABDULLAYEV


Əhliman ƏMİRASLANOV


Sudeyif İMAMVERDİYEV


Bayram YUSİFOV


Seyfəddin ABDULLAYEV


Araz ƏLİYEV


Mayıl ALICANOV


Azad GÖZƏLOV


Fəxrənisə DADAŞOVA


Şıxbala BAYRAMOV


Mirzalı AĞAMALIYEV

***Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, "Gəncəli" İstehsal-Kommersiya şirkətinin rəhbəri Bayram YUSİFOV** bildirdi ki, Azərbaycanda sosial və iqtisadi inkişaf baxımından əhəmiyyətli addımlar atılır. Ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu siyasətinin əsas mahiyyətini məhz insan faktoru, vətəndaşların mənafeyi, onların rifah halının yüksəldilməsi təşkil edir:*

- Hazırda bir çox sahələrlə yanaşı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üzrə də ciddi tədbirlər görülür. Əməkhaqlarının artırılması, pensiya təminatının təkmilləşdirilməsi sahəsində aparılan səmərəli islahatlar, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin daha da yaxşılaşdırılması üçün reallaşdırılan geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahəyə dair qəbul olunan və həyata keçirilən bir çox qanunlar xalqımızın rifah halının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərdir. Şübhəsiz ki, bu sosial islahatlar və inkişaf məsələləri uğurlu dövlət siyasətinin prioritetləri hesab edilirlər.

Regionlarımızın sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası sayəsində bölgələrdə də müxtəlif sahələrdə böyük uğurlar qazanılıb. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, iqtisadiyyatın sabitliyini qorumaq üçün regional inkişafda tarazlılığın saxlanılması vacib şərtlərdəndir. Son illərdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında hökumətin iqtisadi siyasətində regional inkişaf məsələlərinə xüsusi diqqətin yetirilməsi, bölgələrin tərəqqisinə yönəlmiş dövlət proqramlarının, fərman və sərəncamların yüksək dinamizmlə həyata keçirilməsi məhz bu reallığa əsaslanır. Bu həm də onunla şərtlənir ki, milli iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin yerinə yetirilməsi regionların inkişafının sürətləndirilməsini, habelə sosial-iqtisadi problemlərin həllində sahibkarlığın rolunun artırılmasını, regionlarda müasir infrastrukturun yaradılmasını tələb edir. Məhz regionların sosial-iqtisadi inkişafına göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq respublikamız ictimai həyatın bütün sahələrində çoxşaxəli islahatlar aparan və investisiya cəlbediciliyini qoruyan ölkələrdən biri kimi tanınır.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kursun, sosial-iqtisadi islahatların dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etdikdə şahidi oluruq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Son illərdə görülən işlərin yekunları da bir daha göstərir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daima öz uğurlu fəaliyyəti ilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına layiqli töhfələr verir.

Ölkəmiz inkişaf etdikcə, yüksəldikcə bizi sevməyən bəzi dairələr Azərbaycana qarşı müxtəlif qarayaxma kampaniyalarına başlayırlar. Onlar bu prosesdə daxildəki radikal müxalifətdən bir vasitə kimi istifadə edirlər.

Hər bir ölkədə sağlam müxalifətin olması yaxşı bir haldır. Lakin çox təəssüflər olsun ki, Azərbaycanda özlərini müxalifət adlandıranların bir qismi radikal əhvali-ruhiyyəli və şərböhtançı xislətlidirlər. Onlar heç zaman dövlətə, xalqa xidmət etmək, Azərbaycanın inkişafına töhfə vermək istəmirlər. Bu radikal müxalifətin hakimiyyət dövrünün də şahidi olmuşuq. Onların hakimiyyəti dövründə ölkədəki xaosu, vətəndaş qarşıdurmasını, sosial-iqtisadi tənəzzülü, torpaqlarımızın 20 faizinin işğalı ilə nəticələnən məğlubiyyətləri də xatırlayırıq. Radikal müxalifətçilər bəzi xarici təşkilatların, eyni zamanda erməni lobbisinin vəsaiti hesabına ölkəni yenidən anarxiyaya, xaosa aparmaq istəyirlər.

Lakin dövlətimiz və xalqımız buna heç zaman imkan verməyəcəkdir. Ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür. Vətəndaşlarımız Azərbaycanın inkişafından, həyata keçirilən sosial-iqtisadi islahatlardan çox razıdırlar və dövlət başçısı cənab İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləyirlər. Ölkəmizdə qarşıdurma, xaos yaratmaq istəyənlər nəhayət dərk etməlidirlər ki, Azərbaycanda sabitlik, inkişaf, vətəndaş və dövlət həmrəyliyi möhkəm əsaslar üzərində qurulub və bunu heç bir qüvvə sarsıda bilməz.

Azərbaycanın gələcək uğurlarının təntənəsinə, Vətənimizin çiçəklənməsinə çalışan respublika ağsaqqallarının da məqsədi cəmiyyətimizin, xüsusilə də gənclərimizin doğru yola istiqamətləndirilməsi, onların ədalət, düzgünlük, vətənpərvərlik, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət və əməksevərlik ruhunda tərbiyə edilməsidir. Ulu Öndər Heydər Əliyev tərəfindən milli-mənəvi dəyərlərimizin qızıl fondu adlandırılan ağsaqqallar ordusu gənc nəslin yüksək vətənpərvərlik ruhunda böyüməsi, ölkədə əmin-amanlığın qorunması, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin dəstəklənməsi üçün üzərlərinə düşən vəzifələri bundan sonra da böyük səylə həyata keçirəcəklər.

***Ağsu rayon Ağsaqqallar Şurasının sədri Seyfəddin ABDULLAYEV** dedi ki, dayanıqlı inkişaf yolu ilə inamla addımlayan Azərbaycan çox qüdrətli dövlətə çevrilib. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədyi "gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq" fikri bugünümüzün reallığıdır. Həqiqətən də Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasətlə Azərbaycan Cənubi Qafqazın lider dövləti, dünya birliyində isə söz sahibinə çevrilib:*

- Bu gün Azərbaycan reallıqları göz önündədir. Ölkənin sürətli iqtisadi inkişafı, xalqın sosial rifahının gündən-gündən yaxşılaşdırılması və Azərbaycanın dünya dövlətləri sırasındakı yüksələn mövqeyi cənab İlham Əliyevin müstəqil siyasətinin real təzahürüdür. Ancaq etiraf etməliyik ki, bu uğurlar heç də asan əldə edilməyib. Məhz Azərbaycan Prezidentinin prinsipiallığı, qətiyyəti sayəsində ölkəmiz bu nailiyyətlərə imza atıb.

Əlbəttə ki, bu uğurlar bəzilərində qıcıq yaradır. Həmin qüvvələr Azərbaycanın qısa müddət ərzində nail olduğu bu yüksəlişi həzm edə bilmirlər. Çirkin əməllərlə bu uğurlara kölgə salmaq, ölkəmizə qara yaxmaq üçün hər vasitəyə əl atırlar. Ancaq nə qədər pislik etsələr də, bu əməlləri, xislətləri Azərbaycanı, xüsusən də xalqı ruhdan salmayacaq, əksinə, daha da mütəşəkkil olmağa sövq edəcəkdir.

Bu gün Azərbaycanın bölgələrinin durumu da ölkənin uğurlu inkişafının göstəricisidir. Hər bir bölgədə aparılan quruculuq işləri bölgələrin simasını büsbütün dəyişib. Digər rayonlarımız kimi, Ağsu rayonunun da sosial-iqtisadi inkişafı istiqamətində böyük işlər görülür. Rayonda qazlaşdırma prosesi artıq 99 faizə çatıb. Aqrar sahədə də uğurlu göstəricilər var. Pambıqçılıq, baramaçılıq yüksəlişdədir, bu il zəmilərdən 115 min ton taxıl biçilib.

Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu göstəriciləridir. Regionların inkişafını daim diqqət mərkəzində saxlayan cənab Prezident əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində çox böyük işlər görür. Biz ağsaqqallar da dövlət başçısının bu siyasətinə dəstək verərək hər zaman onun yanında olduğumuzu bəyan etmişik. Biz əminik ki, Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab İlham Əliyev Azərbaycanı daha böyük zirvələrə yüksəldəcəkdir.

***Zaqatala Rayon Gənclər və İdman İdarəsinin rəisi Araz ƏLİYEV**in sözlərinə görə, hər bir gənc qürur hissi duyur ki, onun dünyada inkişaf etmiş, güclü, qüdrətli dövləti, Azərbaycan adlanan vətəni var. Fəxr edirik ki, biz Azərbaycanın vətəndaşıyıq:*

- Bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş bir dövlətinə çevrilmiş və inkişaf etmiş dövlətlər arasında öz yerini inamla qoruyub saxlayır. Azərbaycan dünyada həm də inkişaf etmiş idman dövləti kimi də tanınır. Bu inkişaf heç də öz-özünə və asan baş verməmişdir. Bu inkişaf Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanı yenidən qurub yaratdı. Onun apardığı siyasət və özünü dövlətə həsr etməsi bizim qızıl tariximizdir. Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi isə Azərbaycanı daha sürətli inkişaf yoluna çıxarıb. İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın xalqın sevgisi, inamı və birliyi ilə həyata keçirdikləri gərgin fəaliyyətin nəticəsidir ki, Azərbaycan dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin Azərbaycan gənclərinə göstərdiyi diqqət və qayğı göz qarşısındadır. Dünyanın elə bir ölkəsi tapılmaz ki, dövlət öz gənclərinə Azərbaycan dövləti qədər qayğı göstərsin. Buna misal Prezident İlham Əliyevin həyata keçirdiyi layihələr, ölkəmizdə təşkil olunan dünya səviyyəli tədbirlər və gənclərə yaradılan şəraitdir. Elə bir Avropa ölkəsi yoxdur ki, orada Azərbaycandakı kimi Olimpiya İdman kompleksləri, Gənclər evləri, təhsil ocaqları və s. olsun. Bütün bunlar Azərbaycan gənclərinin sağlam böyüməsinə, savadlı olmasına xidmət edir. Bunların nəticəsidir ki, gənclərimiz dünyada keçirilən tədbirlərdə və idman yarışlarında çoxlu uğurlar və qələbələr əldə edərək vətənimizin üçrəngli bayrağını ucalara qaldırırlar.

Zaqatala rayonunda da gənclərə göstərilən diqqət və qayğı, rayon rəhbərliyinin yaratdığı şərait ölkə başçısının siyasətinin ardıcıl davamıdır. Rayonumuzun gəncləri ölkədə və dünyada keçirilən tədbirlərdə fəal iştirak edir, uğurlar qazanaraq ölkəmizin adını ucaldırlar.

***Şamaxı Rayon Ağsaqqallar Şurasının sədri, tarix elmləri üzrə fəlsəfə doktoru Mayıl ALICANOV** dedi ki, ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi Prezident İlham Əliyevin müvəffəqiyyətlə həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir:*

- Prezident İlham Əliyev tərəfindən respublikada sənaye ilə yanaşı, qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması, beləliklə də, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı şəkildə inkişaf etdirilməsi başlıca hədəf kimi götürülür. Bu baxımdan bilavasitə dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə regionların davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən dövlət proqramları olduqca təqdirəlayiqdir. Məlum olduğu kimi, bu il fevralın 5-də Ağsu, İsmayıllı və Şamaxı ərazisində baş verən zəlzələlər nəticəsində onlarla fərdi yaşayış evləri uçmuş və qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə xeyli ziyan dəymişdir. Zəlzələdən dərhal sonra Prezident bölgəyə gəldi, yerli sakinlərlə görüşdü, zəlzələnin törətdiyi fəsadlarla yerindəcə tanış oldu, quruculuq və bərpa prosesini şəxsi nəzarətinə götürdü. Bunun nəticəsidir ki, təbii fəlakətdən dərhal sonra rayonda mühəndis-kommunikasiya sistemləri bərpa olundu, zəlzələdən zərər çəkmiş əhaliyə ilkin yardım göstərildi.

İlham Əliyevin baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması haqqında sərəncamı, yerli sakinlərlə görüşü, onlara maddi və mənəvi dayaq durması onun hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha əyani surətdə təsdiq etmiş oldu. Zəlzələnin fəsadlarının aradan qaldırılması haqqında sərəncamla kifayətlənməyən Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə yenidən Şamaxıya gəldilər, vətəndaşlarla şəxsən görüşdülər, yeni tikilmiş və istifadəyə verilmiş evlərin sakinləri ilə həmsöhbət oldular.

Təbii fəlakətdən keçən dövrdə vətəndaşların müraciəti əsasında 6251 evə baxış keçirilib. Bu evlərdən 375-i qəzalı hesab edilib və artıq onlardan 90 evin inşası başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Fövqəladə Hallar Nazirliyinin müvafiq komissiyası tərəfindən 1442 evin bərpaya, 2501 evin təmirə ehtiyacı olduğu bildirilib. Hazırda 105 evdə tikinti işləri aparılır, bərpaya ehtiyacı olan evlərdən 181-də işlər başa çatıb, 670-də işlər görülür, həmçinin 320 evdə təmir işləri bitib, 85 evdə isə işlər davam etdirilməkdədir.

Zəlzələdən evlərinə ziyan dəymiş vətəndaşların sosial vəziyyətini nəzərə alaraq Heydər Əliyev Fondu rayon üzrə daha 44 evin tikintisini həyata keçirəcəkdir. Artıq 31 ev tikilir, 12 evdə isə təmir-bərpa işləri görülür. Hazırda aparılan işlərlə bərabər evlərin smeta sənədlərinin hazırlanması və işlərin layihələndirilməsi, eyni zamanda vətəndaşların müraciətləri əsasında evlərə baxış prosesi davam edir.

Zəlzələnin fəsadlarının aradan qaldırılması ilə yanaşı, Şamaxıda təhsil, səhiyyə və mədəniyyət sahələrində də infrastrukturun yenilənməsi istiqamətində işlər görülür. Həmçinin şəxsən Mehriban Əliyevanın rəhbərliyi ilə rayonda 10 sosial obyektin tikintisi aparılır. Belə ki, şəhər 2 saylı və Meysəri kənd körpələr evi-uşaq bağçaları, Məlikçobanlı kənd tam orta məktəbi, həmçinin Həmyəli, Birinci Quşçu, Mərzəndiyə, Məlhəm və Meysəri kəndlərində tibb məntəqələri tikilir. Ölkə Prezidentinin 27 avqust 2018-ci il tarixli sərəncamına əsasən, Şamaxı şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi davam etdirilir.

***Ağdaş Rayon Gənclər və İdman İdarəsinin rəisi Azad GÖZƏLOV** diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün istiqamətlər üzrə durmadan inkişaf edir. Respublikamız dünyəvi və demokratik dövlət olaraq dünyada öz mövqeyini və maraqlarını layiqincə təmin etməkdədir:*

- Ölkəmizdə bütün sahələri əhatə edən sürətli inkişaf gənclər və idman sahəsində də bir sıra uğur və nailiyyətlərin qazanılmasına təkan vermişdir. Dövlət başçısı İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısı nəticəsində gənclər və idman siyasəti dövlətin əsas prioritetlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun təsis edilməsi, 2015-2025-ci illəri əhatə edəcək "Azərbaycan Gənclərinin İnkişafı Strategiyası"nın qəbul olunması, "2017-2021-ci illərdə Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın təsdiq olunması yuxarıda qeyd olunan fikirlərin əyani təzahürüdür. Böyüməkdə olan gənc nəslin fiziki cəhətdən sağlam, əqli cəhətdən möhkəm olması üçün ölkəmizdə geniş meydanlar açılmışdır. 40-a yaxın Gənclər mərkəzləri, 44 Olimpiya idman kompleksi, idman zalları tikilərək yeniyetmə və gənclərin istifadəsinə verilmişdir.

Bu gün rayonumuzda gənclər idmanın sərbəst güləş, yunan-Roma güləşi, boks, taekvondo, karate, gimnastika, futbol, voleybol, şahmat-dama, budo döyüş növləri ilə məşğul olurlar. Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi idmana marağın artmasına səbəb olmuş və yeniyetmə gənclərimizin sağlamlıqlarının möhkəmliyinə xidmət edir.

Ölkədə əmin-amanlıq şəraitinin yaxşılaşdırılması, ictimai asayişin yüksək səviyyədə qorunması, maaşların, təqaüdlərin, müavinətlərin artırılması, sakinlərin rifah halının yüksəldilməsi bir daha onu deməyə əsas verir ki, Prezident İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir. Bu, daim əməli işlərlə sübut olunur.

Biz ağdaşlı gənclər bundan sonra da dövlətimizin qorunması, çiçəklənməsi, daim inkişaf etməsi üçün Heydər Əliyev siyasi kursuna sadiq qalacağıq, bu kursun layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşəcəyik.

***Qəbələ rayon Həmzəli kənd orta məktəbinin müəllimi Fəxrənisə DADAŞOVA** dedi ki, bir millətin mövcudluğu üçün onun sağlam gəncliyinin olması vacib şərtdir:*

- Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün gənclərimiz bütün sahələrdə özlərini doğruldurlar. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə müraciətini xatırlamaq istəyirəm: "Siz Azərbaycanın bugünü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq". Bu sözlərlə gəncliyə olan etimadının, diqqətinin sonsuz olduğunu göstərən Ulu Öndər Azərbaycan gəncliyinin üzərinə böyük vəzifələr qoydu. Mən də bütün yaşıdlarım kimi çalışıram ki, öz fəaliyyətimlə bu vəzifələrin öhdəsindən gəlim. Bir müəllim kimi məqsədimiz həm də şagirdləri azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlər, vətənpərvərlik ruhunda tərbiyə etmək, doğma vətəninə, xalqına, tarixinə sadiq gənclər kimi yetişdirməkdir. Biz sevinirik ki, gündən-günə abadlaşan, gözəlləşən Qəbələmizdə belə gənclərin sayı çoxdur.

Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Biz qəbələli gənclər də hansı sahədə fəaliyyət göstəririksə göstərək öz Prezidentimizə, onun siyasətinə arxalanırıq. Bu gün hər bir gənc Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır.

Savadlı gənc mütəxəssislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Son illər yüzlərlə məktəb tikilib istifadəyə verilib. Bütövlükdə təhsil infrastrukturu yenilənir. İldən-ilə ali məktəblərə qəbul olan məzunlarımızın sayı artır. Yetirmələrimiz müxtəlif müsabiqə və yarışlarda mükafatlar qazanırlar. Mən də Azərbaycanın gənc vətəndaşı olaraq xoşbəxtəm ki, belə bir ölkədə yaşayıram. Dövlətimizlə, gənclərimizlə, Prezidentimizlə qürur duyuram. Gənc müəllimə olaraq gələcəyimiz olan şagirdlərə hər zaman bu dövlətə, bu vətənə layiqli övlad olmalarını aşılamışam və aşılayacağam. Biz böyüklərimizdən, ağsaqqal və ağbirçəklərimizdən vətənə sədaqət, böyüyə hörmət görmüşük və bu ənənələri davam etdirərək gələcək nəslə çatdırmaq borcumuzdur.

***Qobustan Rayon Ağsaqqallar Şurasının sədri Şıxbala BAYRAMOV** bildirdi ki, gündən-günə çiçəklənən Azərbaycanımız öz tarixinin ən böyük intibahını yaşamaqdadır:*

- Bu böyük uğuru yalnız el dilində desək, mənəviyyatı mayıf olanlar görməyə və dərk etməyə bilər. Ölkənin hər bölgəsində uğurla həyata keçirilən möhtəşəm inkişaf bizdən də yan keçmir. Bütün uğurlarımızın cənab Prezidentin yaratdığı sabitlik, əmin-amanlıq və işgüzar şəraitin məntiqi nəticəsi olduğunu hər kəs anlayır, minnətdarlıq edir.

Çünki bu xarüqələr cənab Prezidentin işgüzarlığı və təşəbbüsləri ilə layihələndirilir, sərəncamı ilə maliyyələşdirilir, yaradılması müntəzəm olaraq nəzarətdə saxlanılır, yekunu açılışlarla xalqa təqdim olunur. Bu həqiqətləri duymaq, dəyərləndirmək özü də bir mənəvi saflıq tələb edir.

İqtisadiyyatın bütün sahələrindəki sıçrayışlı inkişaf, yeni iş yerlərinin yaradılması, xalqın bütün zümrələrinin qayğı ilə əhatə olunması cənab İlham Əliyevin hər kəsin Prezidenti olduğunun bariz nümunəsidir.

***Ucar Ağsaqqallar Şurasının sədri Mirzalı AĞAMALIYEV** bildirdi ki, Prezident İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli və gərəkli işləri ilə daim doğruldub. Bunu ötən 16 ildə Azərbaycanın inkişafı, insanların həyat səviyyəsinin yaxşılaşdırılması sübut edir:*

- Bu siyasət indi də davam edir və daha yüksək sürətlə və əzmkarlıqla. Azərbaycan Prezidenti İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdan gələn dövrdə əhalinin sosial rifah halının daha da yüksəldilməsi əsas məsələ olacaq. Ölkə Prezidentinin verdiyi vədlər yüksək səviyyədə yerinə yetirilir. Dövlət başçısı 2019-cu ilin birinci yarısında iki böyük sosial islahatlar paketi təsdiqləyib. Bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir.

Regionların inkişafı ilə bağlı qəbul edilən müvafiq dövlət proqramları çərçivəsində görülən işlər bütün sahələrdə yüksəlişə geniş imkanlar açmışdır. Regionlarda sahibkarlığın ardıcıl şəkildə dəstəklənməsi, güzəştli kreditlərin verilməsi, subsidiyaların həcminin artırılması, müasir təsərrüfatların yaradılması, qabaqcıl təcrübənin tətbiqi, texnika ilə təminatın gücləndirilməsi sayəsində 2019-cu ilin birinci yarısında da uğurlu göstəricilər əldə olunmuşdur. Rayonumuzda da əldə olunan nəticələr ürəkaçandır.

Ümumiyyətlə isə, respublikanın bütün regionları kimi, ötən 16 ildə Ucar rayonu da müasirləşmiş və zəruri infrastruktur layihələri həyata keçirilmişdir. Rayonun 30 yaşayış məntəqəsindən 29-u qazla təmin edilmiş, 15 kənddə su təmizləyici qurğu quraşdırılmış, 13 kəndə Ağsu-Ucar içməli su xəttindən su verilmişdir. Rayon ərazisində son illər istifadəyə verilən broyler quşçuluq kompleksi fəaliyyət göstərməklə, ötən il rayon ərazisində müasir tipli Ucar Pambıq Emalı Zavodu tikilib istifadəyə verilmişdir. Ölkə Prezidentinin sərəncamı ilə kənd yollarının asfaltlanması ilə əlaqədar son illərdə üç layihə həyata keçirilmişdir.

İftixarla demək olar ki, Heydər Əliyev siyasəti ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ictimai-siyasi sabitlik, əmin-amanlıq ən yüksək səviyyədə təmin edilmişdir. Biz ağsaqqalların əsas vəzifəsi ölkədəki sabitliyin qorunmasına çalışmaq, gənclərə düzgün yol göstərməkdir.

***Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin komissiya sədri Fəttah HEYDƏROV** konfransa yekun vuraraq dedi:*

- Olduqca maraqlı, məzmunlu, əhatəli müzakirələr apardıq. Çıxışlarda səslənən birmənalı rəy budur ki, Prezident İlham Əliyevin yeni islahatlar kursu əhali tərəfindən tam dəstəklənir. Həmçinin son sosial paketlər əhalinin rifahını əsaslı şəkildə yüksəldib.

Xalq öz rəhbərinə minnətdardır, onun siyasi kursuna sadiqdir. Hamımız bilirik ki, cənab İlham Əliyevin lider kimi ən böyük uğurlarından biri ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edə bilməsindədir. Möhtərəm Prezidentimizin arxasında qüdrətli və güclü dövlət, yumruq kimi birləşən xalq dayanıb. Məhz bu mənəvi birlik sayəsində ölkə başçısı Azərbaycanın ən qüdrətli dövrünün möhtəşəm tarixini yaradıb.

Azərbaycanı çoxəsrlik dövlətçilik tarixinin ən möhtəşəm dövrünə çatdıran lider məhz İlham Əliyevdir. Əbədiyaşar şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü "Güclü dövlət-müstəqil siyasət" tezisi məhz İlham Əliyevin prezidentliyi dövründə tam mahiyyəti ilə reallaşıb.

Prezident İlham Əliyevin əldə etdiyi böyük uğurların əsas səbəblərindən biri də onun qətiyyətli və prinsipial rəhbər olmasıdır. Prezident daim Azərbaycan dövlətçiliyini hər cür qəsddən qorumağa qadir siya-sətçi olduğunu göstərib. Milli maraqlar naminə cəsarətli qərarlar qəbul etmək bacarığını nümayiş etdirib.

Yeni sosial-iqtisadi islahatlar konsepsiyası Prezident İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olduğunu növbəti dəfə təsdiqlədi. İslahatların növbəti mərhələsinin nəticələrinin dövlətimiz və xalqımız üçün daha uğurlu olacağına böyük əminlik var. Əgər hansısa işin, prosesin müəllifi möhtərəm İlham Əliyevdirsə, demək, o iş yüksək uğurla gedəcək.

Müstəqil Azərbaycan Heydər Əliyev yolu ilə inamla addımlayır. Hər birimiz tam əminik ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində bu yol əbədiyyətə qədər davam edəcəkdir.

***"AZƏRBAYCAN"***





# Mədəniyyət





● Muzeylərimiz

# Dahidən danışan tarix

**Şamil Əzizbəyov küçəsi, 67/69... Bu ünvan sizə nəsə deyirmi? Bəlkə də bəzilərinizə ilk baxışda heç nə söyləmir. "Yəqin, hansısa mənzilin adi ünvanıdı" deyə düşünürsünüz. Amma çoxları üçün bu ünvanın böyük mənası, sözlə izah olunmaz anlamı, xüsusi əhəmiyyəti var...**







Bura musiqini, incəsənəti sevən, duyan hər kəs üçün müqəddəs ünvandı...

Bura Azərbaycan musiqi sənətinin inkişaf etdiyi məbəddir...

Bura musiqiçilər, sənətçilər, araşdırmaçılar üçün bir məktəbdi, tarixdi, istinadgahdı...

Bura bütün musiqi ictimaiyyətinin səcdəgahıdı...

Bura dahi Üzeyir Hacıbəylinin yaşadığı, yaratdığı mənzildir. Ev-muzeyidir...

Azərbaycan professional musiqisinin banisi, Şərqdə ilk operanın müəllifi, ilk simli kvartetin, ilk dövlət xorunun, ilk xalq çalğı alətləri orkestrinin, Azərbaycan Dövlət Konservatoriyasının yaradıcısı, himnimizin bəstəkarı, böyük musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyli 1915-ci ildən 1942-ci ilə qədər bu evdə yaşayıb. 27 il bu evin sakini olan bəstəkarın ömrünün və yaradıcılığının əsas hissəsi burada keçib. Yaşadığı evin hər daşında, hər əşyasında Üzeyir bəylə bağlı xatirələr yaşayır, onun izləri görünür, nəfəsi duyulur.

Kim deyir ki, daşların, divarların dili yoxdur? Keçmişi, tarixi özündə ən çox yaşadan elə quru, cansız daşlardır. Bu evin də divarları dilə gələ bilsəydi, Üzeyir bəy haqda ən maraqlı xatirələri bizə məhz onlar danışardı. Çünki bu dahinin yaradıcılığı, dövrünün ziyalılarla görüşləri, söhbətləri, yaşadığı çətinliklər, çəkdiyi əziyyətlər... - hər şey bu divarlar arasında baş verib. Bu divarlar nələrin şahidi olmayıb ki...

Biz də hər daşına tarix hopmuş bu divarlar arasında, Üzeyir dünyasındayıq. 44 ildir muzey kimi fəaliyyət göstərən bu evdə bəstəkarın həyat və yaradıcılığını əks etdirən müxtəlif memorial əşyalar, sənədlər, fotolar, əlyazmalar, rəsmlər... qorunur. 4 otaqdan ibarət muzeydə 10 mindən çox eksponat var. Onların bir hissəsi ev-muzeyin ekspozisiyasında sərgilənir, qalanları isə fondda saxlanılır.

## Rəsulzadə və Hacıbəyli "Azərbaycan"ın növbəti buraxılışını müzakirə edərkən...

Muzeyin ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri Gülnarə Ələsgərova deyir ki, bu evdə hər şey Üzeyir bəyin zamanında olduğu kimidir. Bunu divarlardan asılan bəzi fotolardan da görmək olar.

Böyük bəstəkarın iş otağındakı royalı divar sobasının qarşısında necə qoyulmuşdusa, indi də elə durur. Royal Jacob Becker tərəfindən Almaniyada istehsal olunub. Üzeyir bəy möcüzələr yaradan barmaqları ilə bu royalın dillərini oxşayaraq, "Koroğlu" operasına, Azərbaycanın himninə, "Sənsiz", "Sevgili canan" romanslarına, 1 və 2 nömrəli fantaziyalarına can verib.

Bəstəkarın yazı masası üzərindəki bütün əşyalarla birlikdə olduğu kimi saxlanılır. Masanın üzərində ona məxsus qol saatı, eynək, mürəkkəbqabı, şamdanlar, çox sevdiyi, əsərlərindən ilhamlandığı rus bəstəkarı Pyotr Çaykovskinin kiçik büstü, "Ericson" telefonu, papirosu, alışqanı və "Azərbaycan" simfonik poemasının yarımçıq notlarını görmək olar. Əgər ömür vəfa etsəydi, dahi bəstəkar bu poemasını yazıb bitirəcəkdi. Təəssüf ki, bu, ona nəsib olmadı.

G.Ələsgərova muzeyin maraqlı eksponatlarından biri olan rəsm əsəri barədə məlumat verir. Rəsmdə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə ilə Üzeyir bəy elə bu evdə, bu yazı masası arxasında təsvir olunub: "Rəsulzadə dəfələrlə bu evin qonağı olub. Onlar yaxın əqidə, məslək dostu idilər. Rəssam Ənvər Əliyevin kətan üzərində yağlı boya ilə çəkdiyi "Üzeyir Hacıbəyli və Məhəmməd Əmin Rəsulzadə" rəsmi tarixi bir əsərdir. Məlumdur ki, Ceyhun bəy Hacıbəyli Fransaya Versal sülh konfransına gedəndən sonra Üzeyir bəy Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olub. Bu tarixi faktı Ənvər Əliyev öz əsərinə məharətlə köçürüb. Üzeyir Hacıbəyli iş otağında, yazı masasının arxasında oturan vəziyyətdə təsvir edilib. Rəsulzadə isə ayaq üstədir. Masanın üzərində "Azərbaycan" qəzeti gözə dəyir. Onlar qəzetin növbəti buraxılışındakı materiallar haqqında fikir və mülahizələrini söyləyirlər. Bu rəsm əsəri muzeyin ən diqqətçəkən eksponatlarından biridir".

Rəssam Ənvər Əliyevin muzeyin divarlarını bəzəyən maraqlı əsərlərindən biri də "Rostropoviçlər ailəsi Hacıbəylilər ailəsinin qonağıdır" adlanır. 1925-ci ildə Üzeyir Hacıbəyli ilk simli kvarteti yaradır. O, Azərbaycan Dövlət Konservatoriyasının rəhbəri və təşkilatçısı kimi simli kvartetə rəhbərlik etmək üçün Moskva Konservatoriyasından Leopold Vitoldoviç Rostropoviçi Azərbaycana dəvət edir. L.Rostropoviç həyat yoldaşı Sofya Nikolayevna Fedotova ilə birlikdə Bakıya gəlir. Onlar Üzeyir bəyin evində də qonaq olurlar: "Rəssam Ənvər Əliyev 2000-ci ildə həmin mövzuda süjetli bir rəsm çəkərək, Üzeyir Hacıbəylinin ev-muzeyinə təqdim etdi. Yağlı boya ilə çəkilmiş rəsmdə Rostropoviç violonçeldə ifa edərkən təsvir olunub. Həyat yoldaşı Sofya Nikolayevna onu royalda müşayiət edir. Qarşı tərəfdə isə Üzeyir bəylə həyat yoldaşı Məleykə xanım əyləşiblər. Üzeyir bəyin bütün diqqəti çalınan musiqidədir. Məleykə xanımın dizi üstündə Rostropoviçlərin kiçik oğlu Slava oturub. Pəncərədən süzülən günəş işığından, stolun üstündəki səmənidən görünür ki, bu ailəvi görüş bahar fəslinə təsadüf edir. İlk baxışdan hiss olunur ki, bu iki ailəni möhkəm dostluq telləri birləşdirir".

## Stalindən bəstəkara minnətdarlıq teleqramı...

Divardan asılan bu xalça isə Üzeyir bəyə 1945-ci ildə 60 illik yubileyi münasibətilə elə həmin il yaradılan Azərbaycan Elmlər Akademiyasının alimləri tərəfindən hədiyyə verilib. Simvolik xarakter daşıyan xalçanın mərkəzində Üzeyir bəyin portreti təsvir olunub. Kənarlarında "Leyli və Məcnun" və "Koroğlu" operalarından obrazların rəsmləri var: "Xalçanın aşağısında Qərb və milli musiqi alətlərinin vəhdətini təsvir edən rəsm işlənib. Bu, təsadüfi deyil. Çünki Yaxın Şərqin musiqi tarixində məhz Üzeyir bəy 1908-ci ildə "Leyli və Məcnun" operasının nümayişi zamanı Qərb tipli orkestrin tərkibinə tar və kamançanı daxil edib. Xalçanın yuxarısında isə tank şəkli təsvir olunub. Bu da simvolik məna daşıyır. Belə ki, İkinci Dünya müharibəsi illərində Üzeyir bəy şəxsi vəsaitindən 100 min rubl cəbhəyə bağışlayıb ki, tank alınsın, sovet əsgərləri faşizmə qarşı daha əzmlə, iradə ilə vuruşsunlar. Bu tank onun simvoludur. Və Stalin o pula görə bəstəkara minnətdarlıq teleqramı göndərib: *"Yoldaş Hacıbəyov! Qızıl Ordunun zirehli tank qüvvələrinə göstərdiyiniz qayğıya görə Sizə minnətdarlığımı bildirirəm. Mənim salamımı və Qızıl Ordunun təşəkkürünü qəbul edin. İ.V.Stalin".* Bu teleqram bu gün bəstəkarın ev-muzeyində qorunan unikal sənədlər sırasındadır".

İş otağındakı kitab dolablarında rus, ərəb, fars, gürcü və tatar dillərində kitablar var. Bu isə onu göstərir ki, böyük şəxsiyyət altı dildə sərbəst yazıb-oxumağı bacarırdı.

Ev-muzeyin qonaq otağında üzərinə müxtəlif qablar düzülən yemək masası, samovar, mis kasalar, qrammofon, radioqəbuledici, bəstəkara hədiyyə göndərilən Amerika istehsalı, cərəyansız işləyən refrijerator-soyuducunu görmək olar.

Üzeyir Hacıbəyli öz dövrünün ziyalıları ilə - şairlərlə, yazıçılarla, musiqiçilərlə, dramaturqlarla yaxın dostluq əlaqələri saxlayırdı. Belə ki, bəstəkarın hazırda muzey olan bu evində görkəmli simalardan Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Məhəmməd Əmin Rəsulzadə, Cəfər Cabbarlı, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Leopold və Mstislav Rostropoviçlər və başqaları qonaq olublar, bu yemək masası arxasında əyləşib, Üzeyir bəyin həyat yoldaşı Məleykə xanımım hazırladığı milli təamları dadıblar.

Üzeyir bəyin ailə fotoları, həyat yoldaşı Məleykə xanımla Peterburqda çəkdirdiyi şəkil, anasının, qardaşlarının fotoları bəstəkarın ailəsini bizə yaxından tanıdır. Divarları bəzəyən, keçmişi özündə yaşadan müxtəlif ağ-qara fotolar insanı bəstəkarın yaşadığı dövrə aparır.

Muzeyin özəl bölümündə isə yataq otağı var. Bu otaqdakı əşyalar Məleykə xanımın cehizlikləridir. Komodun üzərindəki güzgü Məleykə xanımın ən sevimli əşyalarından biri idi. Çünki o güzgü Xurşudbanu Natəvana məxsus olub. Dahi bəstəkarın frakı da bu otaqda saxlanılır. O, məhz bu geyimdə neçə-neçə əsərlərinə dirijorluq edib.

## Bir ovuc Şuşa torpağı...

Üzeyir Hacıbəylinin sevimli əşyalarından biri də divar saatı olub. Bəstəkar ona "mənim ağıllı saatım" deyirmiş. Çünki saat nə geri qalırdı, nə də irəli gedirdi - daim düz işləyirdi: "Divar saatı gecə saat 2-ni göstərir. Bu, Üzeyir bəyin ölüm saatıdır. 1948-ci il noyabrın 22-dən 23-nə keçən gecə Üzeyir bəyin ürəyi dayandı. Himayədarlıq etdiyi bacısının uşaqları da həmin vaxt saatı dayandırdılar. Sanki bəstəkarın ölümü ilə zaman da donub bu evdə".

Diqqətçəkən eksponatlardan biri də Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyinin maketidir. Gülnarə Ələsgərova onu da qeyd etdi ki, eksponatlar arasında Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyində saxlanılan və şəxsən bəstəkara məxsus əşyalar - uşaqlıq papağı, kostyumu, eynəyi, paltosu, Qori Seminariyasında çaldığı skripka, yazı ləvazimatı, mürəkkəbqabı, qələmdan, şəxsi albomu, şəkilləri, anası Şirinbəyim xanımın gəlinlik paltarı və muzeyə yadigar verilmiş kitablar Şuşanın işğalından sonra Bakıya gətirilib və bu ev-muzeyin fondlarında saxlanılır. Bakıya gətirilən eksponatlardan ən dəyərlisi isə Şuşadakı ev-muzeyin həyətindən, Üzeyir bəyin çox sevdiyi armud ağacının dibindən götürülmüş bir ovuc Şuşa torpağıdır...

## Ev-muzeyin yaradılmasına Heydər Əliyevin böyük töhfəsi

Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, bəstəkar Sərdar Fərəcov bildirir ki, ev-muzey 1975-ci il noyabrın 20-də dahi bəstəkarın 90 illik yubileyi münasibətilə Ulu Öndər Heydər Əliyevin böyük səyi və dəstəyi nəticəsində fəaliyyətə başlayıb. Muzeyin ilk ziyarətçisi də Heydər Əliyev olub: "Ulu Öndər dahi bəstəkarın yaradıcılığını, xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirirdi. Bu mənzilin ev-muzeyə çevrilməsində onun danılmaz köməyi var. Biz də tarixi ədalət naminə son təmirdən sonra muzeyə tərtibat verərkən burada "Heydər guşəsi" yaratdıq. Ora Ulu Öndərin Üzeyir bəy haqda fikirlərini və ev-muzeyin açılışından fotoları əlavə etdik. Bunlar əvvəl muzeydə yox idi. Ümumiyyətlə, muzey özü də canlı orqanizmdi, daim yeniliyə ehtiyac var. Bu baxımdan mümkün qədər muzeyə yeni eksponatlar daxil edirik. Muzeydə Mikayıl Hüseynov, Tahir Salahov, Altay Hacıyev, Nəcəfqulu, Ənvər Əliyev, Hüseyn Hacıyev kimi böyük rəssamların dahi bəstəkara həsr etdikləri rəsmlər var idi. Xalq rəssamı Arif Hüseynov da bir işini hədiyyə etdi. 2008-ci ildə Moskva kinematoqrafçıları tərəfindən seçilən "XX əsrin ən gözəl musiqili filmləri"ndən biri də "Arşın mal alan" idi. O mükafatı almaq üçün məni Moskvaya dəvət etdilər. Həmin mükafat hazırda ekspozisiyada nümayiş olunur. Son illər muzeyə daxil olmuş eksponatlardan biri də 2013-cü ildə "Arşın mal alan"ın yaranmasının 100 illiyi münasibətilə ABŞ-ın Los-Anceles şəhərində göstərilən beynəlxalq tamaşanın afişasıdır. Həmin tamaşa Hollivud ulduzlarının 20 il "Oskar" mükafatı aldığı salonda nümayiş olunurdu. Beynəlxalq heyətin iştirakı ilə oynanılan tamaşanın nümayişinə Azərbaycandan da nümayəndə heyəti getmişdi. Tamaşadan sonra bizim konsulluğun işçilərindən xahiş etdim ki, mümkün olsa, teatrın qarşısında asılan afişanı əldə edib ev-muzeyə göndərsinlər. Sağ olsunlar, göndərdilər. İndi həmin yekə afişa ev-muzeyin girişindən asılıb".

***Xəyalə MURADLI, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

● İlklərdən biri

**Azərbaycan xalqının tarixini vərəqlədikcə örnək hadisələrlə qarşılaşırsan. Onlardan biri də hər xalqa mənsub olmayan xeyriyyəçilikdir. Belə xeyriyyəçilik ənənəsinə sadiq qalan, xalqımızın XX əsr ictimai-siyasi və mədəni həyatında silinməz izləri görünən, ömrünün sonunadək təmənnasız xidmət göstərən, millətin inkişafı yolunda var-dövlətini əsirgəməyən Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev idi. O, müstəmləkə altında yaşayan, hər cür tərəqqiyə, inkişafa səbəb olacaq vasitələrdən məhrum edilmiş millətinin sabahı üçün dövrün ziyalıları ilə birgə çıxış yolları axtarırdı.**



# Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi Bakıda açılıb




Yaxşı bilirdi ki, müsəlman-tatar adlandırılan millətinin tərəqqisi, düşdüyü zülmət və zillət quyusundan qurtuluşu üçün mədəniyyət, mətbuat, təhsil lazımdır. Beləliklə, həmin işıq H.Z.Tağıyevin Bakıda min bir əzab-əziyyətlə açdırdığı müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbindən şəfəq saçdı. Hələ o zaman kimsə deyə bilməzdi ki, bu bina həm də yaxın gələcəkdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi yadigarlarından birinə çevriləcək.

## Hacının İmperator III Aleksandra məktubu

Bakıda qızlar məktəbi açmaq istəyən Hacı Zeynalabdin Tağıyev əvvəlcə İmperator III Aleksandrdan icazə istəsə də, cavab müsbət olmur. Çar II Nikolay taxta çıxanda Hacı yenidən buna cəhd edir: 1895-ci ildə Nikolayın tacqoyma mərasimində Zaqafqaziya müsəlmanlarını təmsil edən Hacı Zeynalabdin Tağıyev bu dəfə fürsəti əldən vermir. O, çarın xanımı Aleksandra Fyodorovnaya çox bahalı bir hədiyyə bağışlayır. Eyni zamanda Bakıda onun adına qızlar məktəbinin açılmasını xahiş edir. Hacı nə etdiyini gözəl bilirdi. Bunun üçün özgə bir yol görünmürdü. 1896-cı ildə şifahi, 2 il sonra isə rəsmi razılıq alan H.Z.Tağıyev ilk növbədə məktəb binası üçün müvafiq yerin seçilməsinə və inşasına diqqət yetirdi. Qaragüruhçuların hədə-qorxularına son qoymaq üçün o, Məkkə, Mədinə, Kərbəla, Xorasan, Təbriz, Tehran kimi dini mərkəzlərə, qardaş Türkiyəyə (İstanbula) nümayəndələr göndərdi. Onlar həmin şəhərlərin rəsmi din xadimlərindən aşağıdakı məzmunda imzalanmış və möhürlənmiş sənəd gətirdilər: "Qurani-Kərimdə qız uşaqlarının təhsil almasında heç bir qadağa yoxdur. Müsəlman qızları müasir məktəblərdə təhsil ala bilərlər".

1897-ci ildən Hacı bu istiqamətdə fəallığını artırsa da, Rusiya imperator idarələrinin süründürməçiliyi ilə məsələnin həlli süni surətdə yubadılırdı. Hətta icazəyə - məktəbin binasının yerinin müəyyən edilməsinə və tikintisinə 4 il vaxt sərf olundu. Müsəlman qızlar məktəbi üçün bina Bakıda "İsmailiyyə" binasının yanında (indiki İstiqlaliyyət küçəsi) tikildi.

## Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə xanımın məktəb binasının tikintisinə dəstəyi

Hacı bu işi memar İ.V.Qoslavskiyə həvalə edir. Məktəbin tikilib başa gəlməsinə 200 min rubla yaxın vəsait xərclənir. Binanın ərsəyə gəlməsində dövrün böyük ziyalıları da iştirak edir. Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə xanım bu təşəbbüsü daha çox bəyənir və Hacıya yardımçı olur.

Nəhayət, tarixi gün gəlir: 1901-ci ilin bir payız səhərində bütün Bakı əhalisi məktəbin açılışına toplaşır. "Kaspi" qəzeti həmin hadisəni belə təsvir edir: "Nikolayevski küçəsindəki gözəl imarət bayraqlarla bəzənmişdi. İkinci mərtəbədəki böyük zal gündüz saat 12-də dəvətlilərlə və şəhərin əyan-əşrəflərilə dolmuşdu. Məktəbin yaradılması, tikilməsi barədə danışıqlardan sonra çıxışlar oldu. Məktəbdə oxuyacaq qızların xor dəstəsi bir neçə Azərbaycan mahnısı ifa etdi. Sonra məktəbin ünvanına göndərilən təbrik teleqramları oxundu. Əlimərdan bəy Topçubaşovun oxuduğu təbriki Həsən bəy imzalamışdı. Orada deyilirdi: "Çox yaşa, Hacı!"

Tariximizin və cümhuriyyətin yadigarlarından sayılan Qızlar məktəbi müsəlman ənənələrini Avropa modernizmi ilə bacarıqla birləşdirərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoydu. Maarifçilik tariximizdə, Azərbaycan qadınının təhsil almasında Tağıyevin Qızlar gimnaziyasının böyük rolu danılmazdır. Bu məktəbi bitirən onlarla azərbaycanlı qız sonradan millətimizin tərəqqisində yaxından iştirak edib. Məhz bu məktəbin yetirmələrindən olan Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Qadın Xeyriyyə Cəmiyyətini yaradan Liza Muxtarova, həmçinin Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova və onlarla başqaları cümhuriyyətin fəallarından oldular.

Zaman-zaman cəhalət qaranlığında istedadları boğulan nə qədər Azərbaycan qızı məhz həmin məktəbdə təhsil alıb, inkişaf edib, cəmiyyətin fəal üzvlərinə çevrilib. Bir sözlə, həmin məktəbin Azərbaycan cəmiyyəti üçün faydasını heç nə ilə müqayisə etmək mümkün deyil. Məktəbin açılması prosesi belə olub: Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri A.S.Txoryevski H.Z.Tağıyevə 22 mart 1896-cı il tarixində məktub yazaraq xahiş edir ki, məktəb açmaqla bağlı mərkəzə müraciət etsin. Həmin məktubdan sonra H.Z.Tağıyev 24 aprel 1896-cı il tarixində Qafqaz Tədris Dairəsinin hamisi K.P.Yanovskiyə məktub yazaraq niyyətini bildirir. Hacının məktubuna bir gün sonra Qafqaz Tədris Dairəsinin müfəttişi M.K.Zavadskinin cavabı gəlir.

## Məktub yetişdi və bəhanələr ötüşdü

Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri A.S.Txoryevskinin Hacı Zeynalabdin Tağıyevə ünvanladığı məktubunda deyilir: "Zati-aliləri cənab Qafqaz Tədris Dairəsinin hamisi mənə təklif etdi ki, xalq təhsilinə biganə qalmayan şəxslərdən imperator həzrətlərinin müqəddəs tacqoyma mərasimi ilə əlaqədar pul və ya torpaq ianələri şəklində yeni məktəblər yaratmağı, yaxud da mövcud məktəbləri genişləndirməyi xahiş edim.

Bunu nəzərə alaraq böyük xeyriyyəçiliyi və xalq təhsilinin yayılmasında təəssübkeşliyi hamıya məlum olan bir şəxs kimi Sizə aşağıdakı xahişdə müraciət edirəm: 1) bütün Rusiya üçün qarşıdan gələn sevincli hadisənin şərəfinə Bakıda müsəlman qızlar üçün məktəb təsis edəsiniz. Həmin məktəb Xalq Maarifi Nazirliyinin bir və ya ikisinifli məktəblərinin kursuna müvafiq olmalı, bürada müsəlman ailəsinin ehtiyaclarına uyğun əl işi və evdarlıq tədris olunmalıdır. 2) imperiyada hələlik yeganə olacaq Bakı müsəlman qız məktəbinin təsisinə razılığınız alındığı təqdirdə o, imperatorun qızı, əlahəzrət Böyük Knyaginya Olqa Nikolayevnanın şərəfinə "Olqinski" adlandırılsın".

Daha maraqlı bir məqam isə Birinci gildiya Bakı taciri Hazı Zeynalabdin Tağıyevin Qafqaz Tədris Dairəsinin hamisi K.P.Yanovskiyə 24 aprel 1896-cı il tarixində göndərdiyi məktubdur. Məktubun bəzi incə məqamları var ki, onlar da o zaman Hacının həmin məktəbi açdırmaq üçün çəkdiyi əziyyət və milli mənafe xatirinə milyonlarından belə keçməsidir. Məktubda yazılıb: "Əlahəzrət imperatora dərin sədaqət hisslərindən irəli gələrək, mən istəkli monarxlarını ruhən və cismən sevən əsl rus adamlarının həmişə etdiyi və etməli olduqları kimi, imperator həzrətlərinin gələcək müqəddəs tacqoyma mərasimini xeyriyyə işi ilə qeyd edərək, öz vəsaitim hesabına Bakıda rus-müsəlman qız məktəbini yaratmaq qərarına gəldim. Mən nəzdində lazımi xidmətləri və şəraiti olan məktəb binasının tikintisinə 25 min rubl və ayrıca olaraq 125 min rubl ianə ayırıram ki, sonuncu məbləğdən əldə olunan 5 min rublluq faiz məktəbin saxlanılmasını təmin edəcəkdir. Özümə belə bir ümid verirəm ki, müvafiq rəhbər qurumlar həmin məktəbə imperatriçə Aleksandra Fyodorovnanın adının verilməsi barədə lazımi qaydada ali icazənizi ala biləcəklər".

Bu məktublaşmalar Şərqdə ilk müsəlman qızlar məktəbinin təməl daşı demək olacaqmış. Digər xeyriyyəçilik missiyası kimi Hacı bu əvəzsiz xidməti ilə də xalqının elm və təhsil tarixinə adını şərəflə, qızıl hərflərlə yazdırdı. Qafqaz Tədris Dairəsinin müfəttişi M.K.Zavadskinin Hacıya ünvanladığı məktubda da bu, özünü göstərir: "Zatialiləri Hacı Zeynal Abdin! Sizin 24 aprel tarixli məktubunuza cavab olaraq bildirirəm ki, cənab dairə hamisi məktubunuzda irəli sürülən fikirləri tam bölüşərək və məktəbin açılması üçün təklif edilən planın tatar (həmin dövrdə Çar Rusiyası Azərbaycan türklərini tatar adlandırırdı) qadınlarının təhsili üçün xeyirli olduğunu nəzərə alaraq, məni zati-alinizə bildirməyi müvəkkil etmişdi ki, hami Sizin tərəfinizdən məktəbin saxlanılmasına 150000 rublun köçürülməsi haqqında məlumat aldıqdan dərhal sonra xahiş etdiyiniz vəsatəti qaldıracaq.

İşin təxirəsalınmaz olduğunu və imperator həzrətlərinin müqəddəs tacqoyma gününün yaxınlaşdığını nəzərə alaraq cavabı tezləşdirməyi xahiş edirəm".

Bəli, beləliklə, Hacının vəsaiti və vəsatəti ilə çarizm dövründə fədakarlıqla açdırdığı Qızlar məktəbi xalqımızın zərif təbəqəsinin qara çadradan xilasına, elm, təhsilə yol açılmasına, istedad və qabiliyyətlərinin üzə çıxarılmasına əsas vəsilə oldu...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

Əfqan Əsgərov - 90



Deyirlər, yaşadığı illər insanın sərvətidir. Bu baxımdan yanaşdıqda 90 yaşını tamamladığı üçün onu şəkk-şübhəsiz var-dövlətli insan saymaq olar. Lakin məsələ təkcə ömrün uzunluğunda deyil. Sərvət deyəndə bir çox hallarda heç mal-mülk, daş-qaş, pul nəzərdə tutulmur. Sərvət insanın yaşadığı ömrün mənasında, onun başqalarına nə qədər gərəkli olmasında, faydalı işlərində, xeyirxah əməllərində, şəxsiyyətində, ləyaqətindədir. Bu mənada yola saldığı doqquz onillik ona böyük sərvət gətirib. Söhbət istedadlı və oxunan yazıçı, qəzetçilikdə uzun illər "külüng vuran" jurnalist və publisist, bu gün qələmi ilə xalqına xidmət edən yazarların bir neçə pleyadasının "istehsalat"da müəllimi və böyük bir nəslin ağsaqqalı olan Əfqan Əsgərovdan gedir. Ədəbiyyatsevərlər onu sadəcə Əfqan imzası ilə tanıyırlar.

### "Müharibə uşaqları"ndan biri

Əfqan Əsgərov 1929-cu il sentyabrın 23-də Şirvanın Qarabağlılar kəndində dünyaya göz açıb. "Atam aqronom idi, - deyir. - Nazirlikdə işlədiyindən bizi Bakıya köçürüb gətirmişdi. Müharibə başlayanda onu cəbhəyə apardılar. O zaman şəhərin üzərində tez-tez təyyarələr uçurdu və biz onlara maraqla, heyrətlə tamaşa edirdik. Uşaq idik, nə baş verdiyini bəlkə də hələ tam başa düşmürdük. Müharibənin nə qədər dəhşətli olduğunu mən Ağsuda dərk etdim. Çünki az sonra biz ailəliklə oraya köçdük, bibimgilə. Atamın qərarı belə idi. Ailəsinin şəhərdə başsız qalmasını istəmirdi..."

Beləcə, bu gəncin həyatı növbəti bir təsadüflə davam etdi. Amma dünyagörmüşlər "hər təsadüf zərurətdən doğur" deyiblər.

### "Jurnalist cəsarətli olmalıdır"

1953-cü ildə universiteti bitirən gənc jurnalist "Azərbaycan gəncləri" qəzetində əmək fəaliyyətinə başlayır. Qəzetin səhifələrində mütəmadi olaraq oçerklər, felyetonlar, digər publisistik yazılar, hətta hekayələrlə çıxış edir. Odur ki, oxucular tezliklə imzasını tanıyırlar.

Qəzetdə dərc edilən və gənclik mövzusunda yazılan səhnə əsərləri müsabiqəsində mükafata layiq görülən si dəyişiklikləri əks etdirir. Janrın imkanlarından və qələminin gücündən istifadə edərək "Dədə Bəhmən" trilogiyasında kəndin həyatındakı ziddiyyət və dəyişiklikləri, müharibənin vurduğu zərbələrdən yaranan fəsadları, partiya sistemində özünü göstərən sapıntıları, eləcə də əyintilərlə mübarizəni göstərməyə müvəffəq olur.

Trilogiya "Gülyanaq" romanı ilə başlayır. Romanda əsgər ailəsinin arxa cəbhədəki ağır güzəranı təsvir edilir. Anası balaca Gülyanaqla birlikdə özünü qayadan atmaq istəyir. Ancaq körpəsinə qıymır. Uşağı qayanın başında qoyub təkcə özünə qəsd edir. Sahibsiz qalmış qızcığazı kolxoz sədri Dədə Bəhmən övladlığa götürür. Bu obrazla yazıçı Azərbaycan kəndinin ağsaqqallarının dəyanətini, ləyaqətini, xeyirxahlığını və uzaqgörənliyini göstərib.

Qeyd edək ki, "Gülyanaq" 70-ci illərdə yazılan romanlar arasında ən təsirlilərindən və çox oxunanlardan biri idi. Danışırlar ki, Xalq şairi Rəsul Rza xəstəxanada olarkən tibb bacısının bir kitabı böyük maraqla mütaliə etdiyini görüb. Sonra qızdan həmin kitabı alaraq özü də oxuyub və deyib: "Tənqidçilər Əfqanın "Gülyanaq" əsərini görməli və dəyərləndirməlidirlər". Bu əsər həmin dövrdə həqiqətən də yüksək qiymətləndirildi.

Trilogiyanın növbəti romanı olan "Katib" də cəmiyyətdə geniş əks-səda doğurdu. Burada yazıçı ədalətli partiya işçisi, rayona rəhbərlik etdiyi dövrdə mizan-tərəzini pozmayan İsrafilzadədən, sonra isə vəzifə kürsüsündə onu əvəz edən və insanlarla rəftarında, idarəçilikdə nöqsanlara yol verən katibdən söhbət açır.

Əfqanın yaradıcılığında tarixi romanların da öz yeri var. Bunlardan "Bəy İnal"ı, "Şahlar şahı"nı, "Cənnətməkan"ı qeyd etmək olar. "Ədəbiyyatı sevməyin birinci yolu tarixdən keçir, - deyir Əfqan müəllim. - Çünki bu sənin, atanın, ananın və digər doğmalarının da həyatıdır".

Professor Azad Nəbiyev yazıçının tarixi romanlarını belə səciyyələndirib: "Əfqan Azərbaycan ərazisindəki hökmdarlıq dövrünü, həmin dövrdə azərbaycanlıların adət-ənənəsinin, həyat və məişətinin bugünümüz üçün son dərəcə əhəmiyyətli və maraqlı olan xüsusiyyətlərini öyrənmiş, bir neçə ilin axtarışından sonra trilogiyanın ilk romanı olan "Bəy İnal"ı yazmışdır. Əsər xalqımızın qədim dövr tarixini, dövlətçilik ənənəsini öyrənmək baxımından maraqlı olduğu kimi, Azərbaycan xalqının tarixi taleyini, müxtəlif qonşu ölkələr əhatəsində keşməkeşli taleyini öyrənmək baxımından da bir o qədər əhəmiyyətlidir... Xosrov Ənuşirəvan şaha həsr etdiyi "Şahlar şahı" romanı da tarixi həqiqətlərə söykənir. Əfqan burada tarixi roman janrının yeni hüdudlarını müəyyənləşdirməklə yanaşı, ona eyni zamanda bu mövzuda indiyə qədər yazılmış əsərlərdən fərqli olaraq tamamilə yeni məzmun gətirmiş, hökmdar-xalq qarşılıqlı əlaqəsi zəminində ədalətli hökmdarın yeni tipini yaratmışdır".

"Sarı əlcək", "O, mənim oğlumdur", "Qız atası", "Gülməyən adam", "Dağ seli", "Tamah dişi", "Cənnət alması"... Bunlar isə Əfqanın pyesləridir və bu əsərlərin əsasında qoyulmuş tamaşalar da rəğbətlə qarşılanmışdır. Xüsusilə "Qız atası" pyesi böyük maraq doğurmuşdur və bu gün də tamaşaçılar ona həvəslə baxırlar.

## «Ən böyük qazanc sənin insanlığındır»

12 yaşlı Əfqan üçün bu dövrün ən böyük dəhşəti təhsili ilə bağlı idi. Üçüncü sinifdə oxuduğu zaman müəlliməsi ailə qurub bir daha məktəbə gəlmədi. Dərs deməyə isə başqa müəllim yox idi. Bu, "müharibə uşaqları"ndan biri olan Əfqanın həyatda qarşılaşdığı ilk sınaq idi və o, həmin çətinlikdən çıxış yolunu dərslərlə sərbəst məşğul olmaqda tapdı. Beləcə, iki il özü-özünə dərs keçdi, mütəmadi kitab oxudu. Çox güman ki, ədəbiyyata maraq da o vaxtdan qəlbində yurd-yuva saldı.

Məktəbsiz, müəllimsiz qalan həmyaşıdları da günlərini mənasız keçirmirdilər. Yığışıb müxtəlif tamaşalar qururdular. O çağlar Səməd Vurğunun "Vaqif" dramı çox məşhur idi. Uşaqlar bu əsəri özləri bacardıqları səviyyədə səhnələşdirmişdilər. Əfqana Vidadi rolu düşmüşdü. Kim bilir, bəlkə gələcəkdə dramaturgiyada da qələmini sınayıb yaddaqalan əsərlər yaradacaq yeniyetmənin bu sahəyə marağının təməli də həmin günlərdə qoyulurdu...

Yeməyə çörəyin tapılmadığı vaxtlar idi. Odur ki, ön cəbhədəki aqronomları geriyə, arxa cəbhəyə göndərdilər. Davadan qayıdan Hacıağa kişini Yevlax rayonuna baş aqronom təyin etdilər. Bu dəfə ailə Yevlaxa köçməli oldu. Bu vaxt Əfqan beşinci sinifdə oxumalı idi. Lakin harada? Odur ki, yaranmış şəraitə görə yenə də əvvəlki qayda ilə "təhsil alırdı". Tez-tez atasından icazə istəyib sovxozdakı atlara qulluq edirdi, arada onları minib çapırdı da... Artıq şeir də yazmağa başlamışdı.

Müharibə bitsə də, ağırlıqları hələ xalqın çiyinlərində idi. Gələcək barədə fikirləri Əfqana gecə-gündüz rahatlıq vermirdi.

"Bir gün Oğuzda müəllim işləyən əmim Bakıdan rayona qayıdarkən yolüstü bizə gəldi. Məni çox kefsiz görüb səbəbini soruşdu. Məsələnin nə yerdə olduğunu biləndə mənə ürək-dirək verdi. Demə, əmim Bakıya işlədiyi məktəbin şagirdləri üçün qiymət cədvəlləri gətirməyə gedibmiş. Elə buradaca portfelindən boş cədvəllərdən birini çıxarıb adımı oraya yazdı. Beləliklə, təhsilimi yeddinci sinifdə davam etdirə bilərdim".

Əfqan müəllim bunları danışanda gülür. Deyir ki, bu, onun həyatında qanundan kənara çıxdığı yeganə hadisə olub.

Yenidən Bakıya köçəndən sonra evlərinin yaxınlığındakı 1 nömrəli orta məktəbdə onu yeddinci sinfə qəbul etmədilər, dedilər ki, yalnız beşinci sinfə götürərik.

"Kor-peşman evə qayıdırdım. Tramvayda təsadüfən bir qohumumuza rast gəldim. O, tibb texnikumunda oxuyurdu və mənə də sənədlərimi oraya təqdim etməyi məsləhət gördü. Başqa çarəm yox idi. İmtahan verdim, qəbul olundum, oxuyub həmin məktəbi bitirdim. Lakin təyinatla göndərildiyim sovxoza getmədim. Bu texnikum məni universitetin astanasına çatdıran bir körpü rolunu oynadı".

Elə həmin il Əfqan Əsgərov Azərbaycan Dövlət Universitetinin (indi BDU) Filologiya fakültəsinə imtahan verib qiyabi şöbəyə daxil oldu. Ancaq ürəyi təhsil almağa təşnə olduğundan qiyabi oxumaq istəmirdi. Universitetin rektorunun qəbuluna düşməyə müvəffəq oldu. Rektor isə bildirdi ki, Filologiyanın əyanisində boş yer yoxdur, amma təzəcə açılmış Jurnalistika bölməsində əyani təhsil ala bilər.

"Poçtalyon" kinossenarisi Əfqanın yaradıcılıq potensialının geniş olduğundan, mövzu və janr baxımından getdikcə şaxələndiyindən xəbər verirdi. Buna görə də az sonra o, Moskvaya ikiillik kinossenari kurslarına təhsil almağa göndərildi. Oradan qayıdandan sonra isə fəaliyyətini Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında davam etdirdi.

Növbəti bir təsadüf deyəsən yenə də taleyin işi idi. O zaman kinostudiyada ciddi problemlər yaşanırdı. Əfqan Əsgərov bu barədə "Kommunist" qəzetinə bir məqalə yazdı. Məqalə geniş əks-səda doğurdu və Azərbaycan KP MK-nın müşavirəsində müzakirə olundu. Bundan sonra Əfqanı "Kommunist"in ədəbiyyat və incəsənət şöbəsinə müdir təyin etdilər. Beləcə, onun həyatı uzun müddət çalışdığı "Kommunist" qəzeti ilə bağlandı.

"Kommunist" partiya qəzeti, rəsmi mətbu orqan idi. Əfqanın bu qəzetdəki yaradıcılığının özəlliyi onda idi ki, yazılacaq mövzunun, verilən tapşırığın ciddiliyinə, mahiyyətinə xələl gətirmədən onu şair duyğusu, yazıçı təxəyyülü, publisist dili ilə işıqlandırırdı. Şöbəsindəki əməkdaşlara həm hörmətlə, həm də tələbkarlıqla yanaşırdı. Həmin illər ərzində qəzet Azərbaycanın görkəmli yazıçılarının, bəstəkarlarının, sənət adamlarının söz dediyi tribunaya çevrilmişdi. Bu, bir tərəfdən qəzetin nüfuzu ilə bağlı idisə, digər tərəfdən Əfqan müəllimin söz-sənət aləmindəki hörmətindən, müəlliflərlə işləmək bacarığından irəli gəlirdi.

İllər keçdi və Əfqan Əsgərovun bu təcrübə və təşkilatçılığı üçün daha geniş meydan yarandı. Belə ki, o, "Sovet kəndi", "Həyat" qəzetlərində baş redaktor vəzifəsində çalışdı. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Əfqan müəllimin o illərdə seçdiyi kadrlar özlərini doğruldublar və çoxları bu gün də qələmləri, əqidələri ilə jurnalistikamızın, dövlətimizin, dövlətçiliyimizin keşiyindədirlər.

Əfqan müəllimin yaşadığı jurnalist ömrü indiki gənc həmkarları üçün bir nümunədir. O həmişə vurğulayır ki, jurnalistika çətin və məsuliyyətli sahədir: "Jurnalist cəsarətli və qorxmaz olmalıdır. Əgər həqiqəti yazmağa qorxursansa, bəri başdan özün qərar verib başqa sahəyə get".

### Roman o zamanın aparıcı janrı idi

Bir yazıçı kimi Əfqan 1960-cı illərdə tanınmağa başlayır. Həmin vaxt bir-birinin ardınca hekayə topluları nəşr edilir. "Gecikmisən" (1961), "Gözəllik sorağında" (1962), "Sən belə deyilsən" (1963), "Sarı əlcək" (1965) və digər toplular onun bir yazıçı kimi zəngin müşahidə qabiliyyətinə və bədii ifadə imkanlarına malik olduğunu təsdiqləyir.

Məhz bu xüsusiyyətlər daha sonra qələmə aldığı "Qozbel" roman-dilogiyasında yazıçının "əlindən tutur". Burada müəllif insan psixologiyasını geniş çalarlarla açıqlayaraq, onun özünü bütün sarsıntılardan azad edib xoşbəxtlik yoluna necə çıxdığını göstərir.

70-ci illərdə artıq oxucuların qəlbinə geniş yol tapmış yazıçı həyatın daha qlobal problemlərini göstərən romanlar yazır. Bu əsərlərində o, XX əsr Azərbaycan kəndində baş verən sosial və siya-

### Ağsaqqal sözü

Saysız-hesabsız roman, povest və dram əsəri, oçerk və publisist məqalə müəllifi olan yazıçı-jurnalist Əfqan Əsgərov həm də böyük bir nəslin ağsaqqalıdır. 60 ilə yaxındır həyat yollarında qoşa addımladığı Səyyarə xanımla qurduqları qala - möhkəm və xoşbəxt ailə bu gün talelərini birləşdirən gənc cütlüklərə bir örnəkdir.

Əfqan müəllim deyir ki, ailə qurarkən valideynlərlə ümumi fikrə gəlmək, ağsaqqal xeyir-duası almaq vacibdir. Özü də evlənərkən ata-ana məsləhətinə qulaq asıb, elçiliyi isə Süleyman Rəhimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Rəsul Rza ediblər. Uzun illərdir ömür-gün yoldaşı ilə qarşılıqlı sevgi, səmimiyyət və hörmət şəraitində yaşamaqlarının, çoxsaylı övlad, nəvə və nəticə sahibi olmaqlarının bir səbəbinin də məhz bu amillərdən qaynaqlandığını söyləyir.

Azərbaycan xalqının mentalitetini, milli-mənəvi dəyərlərimizi yüksək qiymətləndirən ağsaqqal yazıçı deyir: "Bilirsinizmi, mən kişini və qadını evin divarının çöl və iç tərəflərinə bənzədirəm. Divar hər tərəfdən möhkəm olmalıdır. Kişi evi çölün-bayırın sərt təsirlərindən qorumalı, evin içərisindən muğayat olmalıdır. Qadın isə evin daxili ab-havasının keşiyində dayanmalı, evi uşaqlar üçün isti qucağa çevirməlidir. Evin içindən çölünə, çölündən isə daxilinə zərbə dəyməməlidir. Bizim az qala 60 illik ailə həyatımızın kodeksi belə olub".

Əfqanın uzun ömrü boyu çıxardığı nəticələrdən biri də budur: "Nə olursa-olsun düz danışmalı, haqqı danmamalısan. Haqq Allahın adıdır..."

"İnsanın həyatda qazancını təkcə pulla, qızılla ölçmək olmaz. Qazanc ilk növbədə sənin insanlığındır" deyir ağsaqqal.

"Ağsaqqal sözü Tanrı sözü kimidir". Bu sözləri isə Əfqan "Bəy İnal" romanında yazıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Sağlıq olsun

## "Dahilərin xəstəliyi"

Həkim məsləhəti

**Epilepsiya qədim xəstəliklərdən biridir və xalq dilində bu xəstəliyə müxtəlif adlar verilib: ürəkgetmə, qıcolma və s. Bundan başqa, epilepsiyanın xarakterik klinikası və gedişi qədim insanların şüurunda qəribə duyğular formasında əks olunub.**



Ona "ilahi xəstəlik", "Herkules xəstəliyi" kimi adların verilməsi məhz xəstəliyin o zaman üçün anlaşılmaz olan tutmaları ilə bağlı olub. Epilepsiyaya "dahilərin xəstəliyi" də deyilir. Belə ki, məşhur sərkərdələrin, alimlərin, ədəbiyyatçıların bir çoxunun bu xəstəlikdən əziyyət çəkdiyi bildirilir. Bunların arasında Makedoniyalı İskəndər, Napoleon Bonapart, Yuli Sezar, Dostoyevski, Alfred Nobel, Dante kimi böyük tarixi şəxsiyyətlərin adları hallanır.

"Epilepsiya xəstəliyinin meydana çıxmasında irsi amillərin rolu böyükdür" deyə xəstəlik barədə məlumat verən həkim-nevropatoloq Leyla Vəliyeva bildirib ki, epilepsiya xroniki şiddətlənən xəstəlik olmaqla huşun pozulması, qıcolma, vegetativ tutmalarla müşayiət olunur. Həmçinin epileptiklərə emosional-psixi sferada tutmalararası qeydə alınan, getdikcə şiddətlənən dəyişikliklər də xasdır. Xəstəliyin əmələ gəlməsində alkoqolizm, narkomanlıq, toksikomaniya, uremiya, doğuş və məişət travmaları, infeksiyalar böyük rol oynayır. Epileptik tutmalar bir yandan beyin qabığının tormozlanmasından (huşunu itirmə), digər tərəfdən isə, akalizatorun ifrat oyanmasından (qıcolma) başlayır. Epilepsiya beyin metabolizminin əhəmiyyətli dəyişiklikləri ilə müşahidə olunur. Bununla yanaşı, həm də orqanizmdə karbohidrat, yağ, zülal, süd, duz mübadiləsi pozulur. Xəstəliyin insan həyatı üçün ən təhlükəli sayılan məqamı epilepsiya halətidir.

### Xəstəliyin ən ağır forması

Həkim deyir ki, epilepsiya halətinə düşən zaman əvvəlki hər bir tutma sonrakının başlanmasına təkan verir. Tutmalararası dövrdə insan huşunu itirmiş vəziyyətdə qalır. Epileptik halət xəstəliyin ən ağır formasıdır. Bu halətə düşən xəstə nadir hallarda sağ qalır: "Epileptik halətin yaranmasına əsasən həkimin təyin etdiyi pəhriz və rejimin pozulması, qıcolma əleyhinə preparatların qəbulunda yol verilən səhvlər, hərarətin artması səbəb olur. Bu zaman xəstə komatoz vəziyyətə düşür, beyində şişkinlik şiddətlənir. Xəstənin göz bəbəkləri bəzən daralır, bəzən isə genəlir. Beyində şiddətli şişkinlik uzunsov beyindəki həyat üçün əhəmiyyətli mərkəzləri sıxır, ürəyin işi və tənəffüs kəskin şəkildə pozulur. Epileptik halət başlayan zaman xəstəni yıxılıb əzilməkdən qorumaq üçün bir qədər yumşaq yerdə uzandırmaq, dilinin dişləri arasında qalıb kəsilməməsi üçün qaşığı dəsmala sarıyıb alt-üst çənənin arasında saxlamaq lazımdır. Xəstəyə mümkün qədər tez həkim yardımı göstərilməlidir".

### Epileptik çırpıntılar

L.Vəliyevanın dediyinə görə, epileptik çırpıntılar əsasən bir neçə formaya ayrılır. Böyük qıcolma çırpıntısı bir neçə mərhələdə baş verir. İlk mərhələdə xəstə birdən huşunu itirir, tutmanın kəskin fazası başlanır və 20-30 saniyə davam edir. Spazma gövdə və ətraf əzələlərin şiddətli gərilməsilə müşayiət olunur. Xəstə çox vaxt arxası üstə yıxılır, başı dala əyilir, tənəffüs və qırtlaq əzələləri qıc olur. Tədricən qıcolma üz, gövdə və ətrafların əzələlərinə yayılır. Bir müddət sonra tənəffüs dayanır, üzdə göyərmə və şişkinlik əmələ gəlir, göz bəbəkləri genəlir. Xəstənin ağzından köpüklü və qanla qarışmış (dilini dişlədiyinə görə) maye gəlir: "Spazma keçdikdən sonra xəstənin tənəffüsü yavaş-yavaş bərpa olunur. Əvvəlcə tənəffüs fasiləli və səthi olur, sonradan dərinləşir, nəhayət, öz ritmini bərpa edir. Göyərmə, üzdə şişkinlik azalır. Spazmadan sonra xəstənin huşu müəyyən qədər pozulur, ətrafdakılara reaksiya vermir, əzələləri süstləşir. Belə vəziyyət 15-20 dəqiqə çəkir, sonra xəstə yuxuya gedir. Oyandıqdan sonra ümumi əzginlik, zəiflik, başağrısı kimi hallar hiss edir".

Nevropatoloq qeyd edib ki, böyük qıcolma çırpıntısından qabaq xəstədə xəbərdarlıq əlamətləri fazası (aura) baş verir. Tutmadan bir neçə saat əvvəl və ya ona 2-3 gün qalanda xəstədə daxili narahatlıq, yuxu pozğunluğu, qeyri-müəyyən təlaş və gərginlik kimi hallar ortaya çıxır. Xəstəliyin ikinci növü olan operkulyar tutmalar alın və gicgahda operkul qıcıqlanmasından başlanır. Bu zaman xəstədə qorxu, təlaş ortaya çıxır, o, qoxu və dad bilmir.

Üçüncü forma olan kiçik epilepsiyada müxtəlif formalı tutmalar baş verir. Tutmalar zamanı 3-5 saniyəlik huşun itməsi, dayandırılan hərəkət vəziyyətində donub qalma halları olur. Bəzən isə xəstədə üzün avazıması, qızarması, göz almalarının yuxarıya hərəkəti müşahidə olunur.

### Tam müalicə mümkün olmasa da...

Həkim vurğulayıb ki, epilepsiyanın tam müalicəsi mümkün olmasa da, bu xəstəlikdən əziyyət çəkənlərin vəziyyətini sabit saxlamaq üçün müalicə kursları təyin olunur. Xəstəliyin kompleks müalicəsi qoruyucu rejim və pəhriz, qıcolma əleyhinə preparatlardan ibarətdir. Amma müalicəyə başlamazdan öncə xəstənin fiziki və emosional gərginliyi aradan qaldırılmalıdır. Daha sonra tutmaların qarşısını almaq üçün müalicə kursu təyin oluna bilər. Xəstənin bədən immuniteti isə A, B, C, E vitaminlərinin köməyi ilə bərpa edilir.

Epilepsiyalı xəstələr təyin olunan müalicə ilə paralel bəzi qaydalara da riayət etməlidirlər. Onlar çox tünd çay, qəhvə içməməli, içki və siqaretdən uzaq durmalı, duz, ət, şirniyyatdan müəyyən qədər az istifadə etməlidirlər. Həmçinin qızmar günəş altında gəzməməli, dənizə tək girməməlidirlər. Bunlarla yanaşı, belə xəstələr qətiyyən sürücü işləyə, yanan soba yanında, hərəkət edən mexanizmlərdə çalışa bilməzlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilirik?

- İnsan sümüyü - Yer üzündəki ən möhkəm materiallardan biridir. Möhkəmliyinə görə onu beton və təxminən qranitlə müqayisə etmək olar. Təsəvvür edin, kibrit qutusu ölçüsündə sümük 9 ton kütlənin ağırlığına dözə bilər. Bu ağırlıq beton divarın daşıya biləcəyi ağırlığın 4 qatıdır. İnsan bədənində ən böyük sümük - böyük omba sümüyüdür. Hansı ki, yalnız ekstremal şəraitdə (avtomobil qəzası və s.) sına bilər;
- Orqanizmdə hüceyrələr saniyədə 25 milyon dəfə yenilənir. Və yenilənən hüceyrələrin sayəsində orqanizm özünü tənzimləyir. Orqanizmin ən önəmli müdafiə qatı dəridir. Dəri toxumaları xarici mühitlə təmasda olduğu üçün tez-tez dəyişikliklərə məruz qalır. Məhz sürətlə yenilənən hüceyrələr sayəsində dəridə olan kəsiklər, müxtəlif yaralar, yanıqlar qısa müddətdə sağalır;
- İnsan bədənində mövcud olan damarların ümumi ölçüsü 100 min kilometrdir. Əgər insan orqanizmində böyük arteriyalardan kiçik kapilyarlara qədər bütün damarlar bir xətt üzrə ağız-ağıza qoyulsa, Yer kürəsini iki dəfə sarımaq olar;
- İnsan beyni dəqiqədə 1000 söz oxuya bilər. Araşdırmalara görə insanlar kitabı səssiz oxuyarkən ucadan oxuduqlarından 2 dəfə daha sürətli oxuyurlar;
- İnsanın saçları çox güclüdür. Orta hesabla insanın başında təxminən 150 min tük bitir. Birlikdə toplanmış saç 12 ton ağırlığı qaldıra biləcək gücə malikdir.

Beyin qidası

### Sinir sistemini qoruyan vacib vitamin

**Xolin və ya B4 vitamini orqanizmin bir çox proseslərində iştirak edir. Lakin bu vitaminin əsas vəzifəsi sinir sistemini qorumaq, onun fəaliyyətini yaxşılaşdırmaqdır.**

Xolin sinir hüceyrələrini dağılmaqdan qoruyur, sinir sistemində pozulmaların inkişafının qarşısını alır. İngiltərə alimləri eksperiment zamanı sübut ediblər ki, qidalanmada xolin maddəsinin artması yaddaşın xeyli yaxşılaşmasına kömək edir. Xolin Alsgeymer xəstəliyinin müalicəsində və bu xəstəliyin profilaktikasında faydalıdır. Həmçinin beyin damarlarının sağlamlığını qoruyur ki, bu da insultun profilaktikasında böyük rol oynayır. Mütəxəssislər stress, depressiya, nevroz zamanı qidalanmada xolinin miqdarını artırmağı tövsiyə edirlər.

Xolin vitamini aşağıdakı qidalarda mövcuddur:

- yumurta və xüsusilə yumurta sarısı xolinin əsas mənbəyidir. Yumurtanı ılıq şəkildə yemək daha faydalıdır ki, bu halda xolin saxlanılır;
- qaraciyər, ət;
- cücərdilmiş buğda;
- paxlalar (mərci, noxud, lobya);
- süd məhsulları;
- ispanaq;
- kələm;
- araxis.

Şəfalı bitkilər

### "Təbii aspirin"



**Moruq çox faydalı giləmeyvədir və əsl təbii dərmandır. Bu giləmeyvə C vitamini ilə olduqca zəngindir.**

Bundan əlavə tərkibində A, PP, E, B qrupu vitaminləri, kalium, kalsium, fosfor, mis, maqnezium, dəmir, selen kimi faydalı minerallar, efir yağları var. Müxtəlif turşularla (salisil, alma, limon turşusu) zəngin moruğun tərkibində antosian maddəsi var ki, bu maddə damar və kapilyarları möhkəmləndirir, onların elastikliyini artırır. Orqanizmdə aterosklerozun inkişafını ləngidir. Təzə moruq baş ağrıları zamanı çox yaxşı kömək edir, həmçinin oynaq ağrılarının dərmanıdır ki bu da giləmeyvənin tərkibində salisil turşusunun olmağı ilə izah olunur.

Ürək-damar sistemi üçün faydalı olan moruq yüksək təzyiqi aşağı salır, qanın tərkibini yaxşılaşdırır. Pektinlərlə zəngin olduğu üçün mədə-bağırsaq sisteminə də müsbət təsir edir, bağırsaqları təmizləyir, onlara antiseptik təsir edir, həzmi yaxşılaşdırır, iştahanı artırır.

Dadlı giləmeyvə soyuqdəymə xəstəlikləri zamanı çox yaxşı müalicəvi təsir edir - hərarəti salır, xəstəliyin simptomlarını azaldır, tərlədir, immuniteti möhkəmləndirir. Məhz bu səbəbdən moruğu "təbii aspirin" adlandırırlar. Soyuqdəymə zamanı təzə moruğu suda çay kimi dəmləmək, moruq kompotundan istifadə etmək faydalı olur.

Türkəçarə

### Ədviyyatlı məlhəm

**Qədim təbiblər soyuqdəymə, gərginliklə bağlı olan əzələ ağrıları zamanı ədviyyatlar əsasında hazırlanan çox effektli təbii vasitədən istifadə edirdilər. Bu vasitənin resepti belədir:**



- 1 stəkan zeytun yağı;
- 1 çay qaşığı üyüdülmüş keşniş toxumu;
- 1 çay qaşığı üyüdülmüş zəncəfil;
- 1 çay qaşığı üyüdülmüş darçın;
- 1 çay qaşığı üyüdülmüş cövüz;
- 1 çay qaşığı qara istiot;
- 1 çay qaşığı üyüdülmüş xardal.

Hazırlanması:

Yağı bir qaba töküb qaynayan suyun içərisində qızdırın, içinə ədviyyatları tökün, yaxşı qarışdırın və 5-7 dəqiqə ərzində saxlayın. Daha sonra soyudun və ılıq halda ağrıyan əzələyə çəkib masaj edin. Yağı tünd rəngli şüşə qaba töküb sərin yerdə (soyuducuda yox!) saxlayın.

Bu məlhəmi həmçinin öskürək zamanı yatmazdan əvvəl döş nahiyəsinə də çəkmək olar.

Sağlam həyat

### Şiddətli baş ağrılarına son

**Stressdən, yuxusuzluqdan və şiddətli baş ağrılarından əziyyət çəkirsinizsə, dərhal bu masajı tətbiq edin.**

İlk növbədə düzgün nöqtəni tapmaq lazımdır. Bunun üçün iki qaşın arasındakı çökəyi tapmağa çalışın. 45 saniyə ərzində bu nahiyəni dairəvi hərəkətlərlə masaj edin. Həyata keçirilən masaj qan dövranını yaxşılaşdırıb əzələ gərginliyini azaldacaq və beyinin işini stimullaşdıracaq. Nəticə etibarilə yuxusuzluq problemi aradan qalxacaq və keçirdiyiniz stress möcüzəli şəkildə yox olacaq. Bu masaj həmçinin göz təzyiqini normallaşdırmağa kömək edir, eləcə də sinusit və burun tutulmasına effektli təsir göstərir.



# "UNEC ikili diplom proqramları" sərgisi keçirildi

Azərbaycan Dövlət İqtisad Universitetində "UNEC ikili diplom proqramları" sərgisi keçirilib.



Sərgidə UNEC-in Avropa və Amerikanın aparıcı universitetləri ilə bakalavr və magistratura pilləsi üzrə ikili diplom proqramları təqdim olunub. Sərgini ziyarət edənlərə UNEC-də bakalavr pilləsi üzrə London Universiteti/London İqtisadiyyat Məktəbi, Fransanın Montpellier Universiteti, Fransanın ICD Beynəlxalq Biznes Məktəbi (Institut international du commerce et du developpement) və Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə ikili diplom proqramları barədə ətraflı məlumat verilib. UNEC-in Montpellier universiteti ilə ikili diplom proqramının məzun tələbələri ziyarətçilərə və qonaqlara proqramın üstünlüklərindən bəhs ediblər.

Sərgidə UNEC-in magistr pilləsi üzrə ABŞ-ın Linkoln Universiteti, Fransanın Montpellier Universiteti, Litvanın Mikolas Romeris Universiteti (MRU), İsveçrənin UBİS (University of Business and International Studies) Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (BBTU) ikili diplom proqramları da nümayiş olunub.

UNEC rektoru, professor Ədalət Muradov qonaqlara və jurnalistlərə sərgi barədə açıqlama verib. Bildirib ki, UNEC-in ikili diplomları barədə sərgi ilk dəfədir ki, təşkil olunur. Burada UNEC-in 8 xarici universitetlə magistr və bakalavr pilləsi üzrə ikili diplom proqramı təqdim olunur. Sərginin məqsədi tələbə və magistrlərə ikili diplomlar barədə ətraflı məlumat vermək, onların maraq və istəklərinə uyğun seçim etmələrinə dəstək göstərməkdir. Rektor bildirib ki, 4 illik təhsil müddətində tələbələr UNEC-in diplomu ilə yanaşı, ikili diplom proqramına qoşularaq nüfuzlu xarici universitetin də diplomunu əldə edə bilərlər. Eləcə də magistratura təhsilində UNEC ilə ABŞ-ın və ya Avropanın aparıcı universitetlərindən birinin diplomunu qazanmaq mümkündür.

Sərgini ziyarət edənlər UNEC-in ikili diplom proqramlarını yüksək qiymətləndirərək bu imkanı tələbə və magistrlər üçün böyük uğur adlandırıblar.

Sərgidə tələbələri maraqlandıran suallar cavablandırılıb, ikili diplomlar barədə bukletlər paylanılıb.

***M.SADIQZADƏ,***
***"Azərbaycan"***

*Təkrar*

## "Azərsu" ASC daxili vəsaiti hesabına tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

"Azərsu" tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla), **04 oktyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **14 oktyabr 2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 oktyabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Bədii gimnastika üzrə dünya çempionatı



# "Tokio 2020" Yay Olimpiya Oyunlarına daha beş lisenziyanın sahibi Bakıda müəyyənləşib











Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının altıncı günündə - sentyabrın 21-də qrup hərəkətləri komandaları təsnifat yarışlarında mübarizə aparıblar.

AZƏRTAC xəbər verir ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 24 komanda iki qrupda yarışıb. Azərbaycan gimnastları B qrupunda güclərini sınayıblar. İdmançılar 5 top, 2 cüt gürz və 3 halqa ilə kompozisiyalarını təqdim ediblər.

Ölkəmizi təmsil edən qrup hərəkətləri komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Üç halqa və iki cüt gürzlə təsnifat yarışlarında Yaponiya millisi 29,000 xalla birinci pillədə qərarlaşıb. Bolqarıstan 28,800 xalla ikinci, Rusiya 28,700 xalla üçüncü pillədə yer alıblar. Azərbaycan komandası 26,700 xalla yeddinci olub. Reqlamentə görə, 8 komanda yarışın finalına yüksəlib. Finala yüksələn komandalar arasında Azərbaycanla yanaşı, Yaponiya, Bolqarıstan, Rusiya, Belarus, İsrail, İtaliya və Çin yığmaları da var.

Beş topla mübarizədə isə Rusiya komandası 30,000 xalla birinci olub. İlk üçlüyü Bolqarıstan və Yaponiya (hər ikisi 29,200 xal) yığma komandaları tamamlayıblar. Azərbaycan 26,400 xalla 9-cu pillədə yer alıb. Finala Rusiya, Bolqarıstan, Yaponiya, Belarus, Ukrayna, İtaliya, İsrail və Çin komandaları adlayıblar.



Qrup hərəkətləri komandalarının final yarışları sentyabrın 22-də keçiriləcək.

Günün sonunda çoxnövçülük üzrə yarışların qalibləri də müəyyənləşib. İki kompozisiyanın cəmində 58,700 xal toplayan Rusiya komandası qızıl medal qazanıb. Yaponiya gimnastları 58,200 xalla gümüş medala sahib olublar. Bolqarıstan komandası isə 58,000 xalla çempionatı üçüncü pillədə başa vurub. Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub.

Qrup hərəkətləri komandalarının çıxışını Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov da izləyib.

Çempionatda çoxnövçülük xalları üzrə "Tokio 2020" Yay Olimpiya Oyunlarına vəsiqə əldə edən 5 ən yaxşı komanda da bəlli olub. Ötən il Sofiyada təşkil olunan dünya çempionatının nəticələrinə əsasən Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Yaponiya millisi ev sahibi olaraq Olimpiadada iştirak edəcək. Hər dörd komanda çoxnövçülük xallarına görə ilk beşlikdə qərarlaşıblar. İki proqramın yekununda 53,100 xal toplayan Azərbaycan komandası çoxnövçülük yarışında səkkizinci olub və "Tokio 2020"yə vəsiqəni təmin edib. Azərbaycanla yanaşı, Belarus, İsrail, Çin və Ukraynanın da qrup hərəkətləri komandaları Tokioda güclərini sınayacaqlar.

Altmış bir ölkədən 300-dən artıq gimnast mübarizə apardığı çempionatın medalları Beynəlxalq Gimnastika Federasiyasının loqosu formasında hazırlanıb.

## Azərbaycan Ordusunun hərbi qulluqçusu həlak olub

Sentyabrın 20-də gecə saatlarında hərbi hissələrdən birində naməlum şəraitdə Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Elyarbəy Beyqalı oğlu həlak olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə ilə bağlı hazırda istintaq prosedurları başlanıb.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

## Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskepar, Berd rayonunun Nerkin Karmirağbur kəndlərində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində, Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Füzuli rayonunun Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## DSX: "Düşmən "Qazax" sərhəd diviziyasının döyüş mövqelərini və təminat yolları salan ekskavatoru atəşə tutub"



Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 20-də saat 13:20 radələrində sərhəd döyüş mövqelərimiz və təminat yollarının salınması ilə məşğul olan ekskavator düşmən tərəfindən atəşə tutulub.

Düşmən bölmələrinin atəş nöqtələri cavab atəşi ilə susdurulub.

***"Azərbaycan"***

## Dövlət sərhədlərindən narkotik vasitələrin keçirilməsi cəhdlərinin qarşısı uğurla alınıb

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə sahəsində əməliyyat-axtarış və qoşun tədbirlərini uğurla davam etdirir.

Cari ilin avqustunda Xidmətin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində və "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gətirilməsi planlaşdırılan 1 kiloqram 265 qram tiryək, 156 qram heroin və 107 qram metamfetamin aşkarlanaraq götürülüb. Faktlar üzrə cinayət işləri başlanılıb. Təqsirləndirilən 2 nəfər - Azərbaycan Respublikası vətəndaşları 1981-ci il təvəllüdlü Rzayev Bəhruz Şaird oğlu və 1981-ci il təvəllüdlü Rzayeva Pərvanə Əli qızı barəsində əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

Sentyabrın 18-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisindəki Astara rayonunun Qapıçıməhəllə kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən naməlum şəxsin mühəndis çəpərinin üzərindən dörd bağlamanı atması və digər şəxsin bu bağlamanı götürərək ərazidən uzaqlaşması sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadı dövlət sərhədini pozaraq bağlamanı atmış şəxsi təqib edərək İran İslam Respublikası vətəndaşı 1975-ci il təvəllüdlü Fərşad Sərhəngi Əliabbas oğlunu sərhəd pozucusu qismində saxlayıb.

Dövlət sərhədinin pozulması ilə əlaqədar Daxili İşlər Nazirliyinin Astara rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində bağlamanı götürüb ərazidən uzaqlaşan şəxsin Azərbaycan Respublikasının vətəndaşı 1961-ci il təvəllüdlü Hüseynov Dilavər İsgəndər oğlu olması müəyyənləşdirilib. O, şübhəli şəxs qismində saxlanılıb. Dindirmə zamanı D.Hüseynov götürdüyü bağlamanı Astara şəhər sakini 1970-ci il təvəllüdlü Əliyeva Bahar Əsgər qızının evində gizlətdiyini bildirib. B.Əliyevanın evinə baxış zamanı dörd bağlamanın içərisində ümumi çəkisi 2 kiloqram 245 qram olan heroin aşkarlanaq götürülüb.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Dövlət Universitetinin rektorluğu universitetin Riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrasının müdiri, professor Nəbi Qurbanova qardaşı

**ZAHİD QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 9028**
**Sifariş 3088**
**Qiymәti 40 qəpik**